www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 iyul 2019-cu il Cümə axşamı № 150 (7320) Qiyməti 60 qəpik

**Xəbər**

## Xəzərsahili torpaqların mühafizəsi üçün monitorinq qrupları yaradıldı

yazısı səh.15-də

**Gündəm**

### Bakıda "sarı zolaq" qadağasına 2 gün qaldı - 40 manat cəriməsi var



Sarı rəngli və xüsusi işarəli avtomobil zolaqları kameralar vasitəsilə tam nəzarətə götürülüb

yazısı səh.10-da

### "RAİ bəyanatlarla deyil, həyata keçirdiyi müsbət işləri ilə gündəmdə olacaq" - qurum rəsmisi

yazısı səh.4-də

### Müəllim olmaq istəyənlərin imtahan həyəcanı

yazısı səh.3-də

### Aprel şəhidlərinin uşaqları üçün yay düşərgəsi təşkil edilir

yazısı səh.13-də

### İŞİD-ə pul verdiyinə görə tutulan azərbaycanlı kimdir - ekspertdən maraqlı açıqlamalar

yazısı səh.6-da

### Müxalifət bu yay tətilə çıxmayacaq

yazısı səh.7-də

### "Tehran Azərbaycanın ərazi bütövlüyünə sadiqdir" - İran səfiri

yazısı səh.11-də

### Avtoservis və avtoyuma məntəqələrində təhlükəsizlik, məsuliyyət problemi - araşdırma

yazısı səh.12-də

### Səhərlər çox idman etmək olmazmış...

yazısı səh.14-də

### Maskalanıb mənzilə basqın edən dostlara 39 il həbs cəzası verildi

yazısı səh.14-də

### Parkinqlərdə yenidən qiymət artımı gözlənilir

yazısı səh.15-də

# BAKININ İLDIRIMSÜRƏTLİ SAVAŞ PLANI - "ERMƏNİSTAN, FAKTİKİ, MÜTTƏFİQSİZ QALIB..."

Türkiyədəki azərbaycanlı politoloqdan sensasion təklif; Ankara-Moskva yaxınlaşması Bakıya Qarabağ fürsəti yarada bilərmi?




yazısı səh.8-də

## "Yaşayış minimumu və minimum əmək haqqının artması ehtimalı var"

Deputat Hadi Rəcəblidən sosial mesajlar və maraqlı açıqlamalar; "ABŞ-da milyonu olmayan adama deputatlığa namizədliyini irəli sürməyə icazə vermirlər"

yazısı səh.5-də



*Pənah Hüseyn:*

### "Dünya sanki tvitlərlə idarə olunur"

yazısı səh.7-də



### Babacan Ərdoğana ciddi rəqib ola bilər, bir şərtlə...

yazısı səh.9-da



*Etibar Əliyev:*

### "Nazirlik qarşısına məqsəd qoyub ki, məktəblərdə daha savadlı pedaqoqlar çalışsın"

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019

# Heydər Əliyev Fondu ürək qüsurlu uşaqların əməliyyatına dəstək oldu

**Heydər Əliyev Fondunun dəstəyi ilə Cəbrayıl və Füzuli rayonlarından olan ürək qüsurlu uşaqlar üzərində cərrahiyyə əməliyyatı həyata keçirilib.**

«Trend»in məlumatına görə, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin iyunun 1-3 tarixlərində Cəbrayıl rayonunun Cocuq Mərcanlı qəsəbəsi və Füzuli rayonunda "Uşaq ürəkləri Qarabağda döyünür!" şüarı altında keçirdiyi xeyriyyə aksiyası zamanı 400-dək uşaq diaqnostik tibbi müayinələrdən keçirilmişdi.

Müayinələr nəticəsində 7 uşaqda anadangəlmə mürəkkəb ürək qüsurları aşkarlanmış və onların Mərkəzi Gömrük Hospitalına yönləndirilməsinə qərar verilmişdi.

Qeyd olunan uşaqların əməliyyatı və müalicəsi ilə bağlı məsələləri Heydər Əliyev Fondu öz üzərinə götürüb.



## 6 ayda dövlət büdcəsinin gəlirləri 10,4, xərcləri isə 10,9 milyard manat olub

**Bu ilin yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirləri 10 milyard 405,5 milyon manat, xərcləri isə 10 milyard 951 milyon manat təşkil edib.**

«Trend»in məlumatına görə, bu barədə Maliyyə Nazirliyinin təqdim etdiyi məlumatlarda bildirilir.

Dövlət Statistika Komitəsinin hesabatında isə qeyd olunur ki, büdcənin icrasında 545,5 milyon manatlıq və ya ümumi daxili məhsulun 1,4 faizi qədər kəsir yaranıb.

## Azərbaycanda elektron qolbaq daşıyan məhkumların sayı açıqlanıb



**"Məhkumlardan 4700-dən çox şəxs cari ildə cəza müddətinin başa çatması və qanunla müəyyən edilmiş digər əsaslarla qeydiyyatdan çıxarılıb, cəzanın icrasından boyun qaçıran 384 məhkumun cəzası məhkəmələr tərəfindən digər cəza növü, o cümlədən 48 nəfərin cəzası azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilib".**

APA-nın məlumatına görə, bunu Ədliyyə Nazirliyində Probasiya Xidməti tərəfindən cari ilin birinci yarım ilində azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrası üzrə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş müşavirədə Probasiya Xidmətinin rəisi - baş probasiya məmuru Akşin Ziyadov deyib.

O bildirib ki, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqi genişlənərək bu ilin birinci yarım ilində həmin cəzalara, o cümlədən azadlığın məhdudlaşdırılması cəza növünə məhkum olunmuş 1100-ə yaxın şəxsə elektron qolbaq taxılıb edilib.

A. Ziyadov qeyd edib ki, cəza müddəti bitən və digər qanuni əsaslara görə 300-dək məhkumdan isə qolbaqlar çıxarılıb: "Hazırda 1400-dən artıq məhkum elektron qolbaq daşıyır".

## Qara Dəniz Ticarət və İnkişaf Bankının manatla istiqraz emissiyasının parametrləri açıqlanıb

**Qara Dəniz Ticarət və İnkişaf Bankının Azərbaycan manatı ilə emissiya etdiyi istiqrazlar 730 gün müddətində dövriyyədə olacaq.**

"Report" bu barədə Maliyyə Bazarlarına Nəzarət Palatasına istinadən xəbər verir.

Məlumata görə, söhbət hər birinin nominal dəyəri 1 000 manat olan 10 min ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazdan gedir. Onların illik gəlirliliyi 9,25% olacaq. Faiz ödənişləri 3 aydan bir həyata keçiriləcək.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


## 2019-cu ildə 73 ton 892 kq narkotik maddə məhv edilib

**2019-cu ilin 6 ayı ərzində Daxili İşlər Nazirliyinin təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Sərhəd Xidməti və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 2273 hektar ərazi üzrə 73 ton 892 kq (150 min 201 ədəd) narkotik tərkibli bitkilər məhv edilib.**

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasından APA -ya verilən məlumata görə, cinayət məsuliyyətinə 1687 nəfər cəlb edilib. Onlardan 16-18 yaşadək 5 nəfər, 18-25 yaş 130 nəfər, 26-29 yaş 253 nəfər, 30 yaşdan yuxarı isə 1299 nəfər təşkil edir.

Məsuliyyətə cəlb olunanlardan 160 nəfəri fəhlə, 2-si maddi məsul şəxs, 1-i orta ixtisas tələbəsi, 412-si əvvəllər cinayət törədib, 5-i əvvəllər xüsusi qeydiyyatda olan, 1141-i işləməyən, 1636-sı kişilər, 38-i qadın, 56 nəfəri isə xarici ölkə vətəndaşı olub.

Əcnəbilərdən 40-ı İran, 5-i Gürcüstan, 4-ü Rusiya, 2-si Türkiyə, 2-si Ukrayna, 2-si Pakistan, 1-i Braziliya vətəndaşıdır.

Qeyd olunan xarici ölkə vətəndaşlarından ümumilikdə 585 kq 840,908 qram narkotik vasitə götürülüb.



## "Postsovet məkanı ilə bağlı gündəmimiz birləşdirici xarakter daşıyır" - Lavrov

**"Rusiyanın postsovet məkanı ilə bağlı gündəmi birləşdirici xarakter daşıyır". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov "Arqumentı i faktı" qəzetinə müsahibəsində deyib.**

O, Moskvanın postsovet məkanı ilə bağlı gündəminin regionda yerləşən ölkələrin sosial-iqtisadi inkişafının stimullaşdırılmasına, inteqrasiya proseslərinin uyğunlaşdırılmasına, kollektiv təhlükəsizliyin, təhlükə və çağırışlara qarşı birgə reaksiya potensialının möhkəmləndirilməsinə istiqamətləndiyini bildirib.

"Ukrayna, Gürcüstan və Ermənistandakı siyasi proseslərə sözsüz ki, laqeyd deyilik. Ona görə ki, burada söhbət qardaş xalqlardan gedir. Hansılarla ki, bizi bir dövlətdə yaşamağımız daxil olmaqla, uzun tarixi münasibətlər bağlayır. Təəssüflər olsun ki, Sovet İttifaqının dağılmasından sonra Qərb inandı ki "tarixin sonu" gəlib çatıb, ona bu və ya digər dövlətlərin daxili işlərinə kobud surətdə qarışmağa, daxili siyasi prosesləri idarə etməyə icazə verilib. Ukrayna buna bariz nümunədir. Ermənistanda isə vəziyyət fərqlidir. Ermənistanla strateji, müttəfiqlik münasibətləri qurulub. O ki qaldı Gürcüstana, əminəm ki, gürcü xalqı rusiyalıları düşmən hesab etmir", - Rusiya XİN başçısı vurğulayıb.

## Bu gün 39 dərəcə isti olacaq

**Bu gün ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən «Trend»ə verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu Abşeron yarımadasında gecə 21-25, gündüz 30-35, Bakıda gecə 23-25, gündüz 33-35 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz olacaq.

Abşeron çimərliklərində mülayim şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 24-25 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək, lakin axşam saatlarında bəzi dağlıq rayonlarda şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-25, gündüz 34-39, dağlarda gecə 13-18, gündüz 22-27 dərəcə isti təşkil edəcək.

## Türkiyədə "15 iyul" hadisələri ilə bağlı daha 43 nəfərə ömürlük həbs cəzası verilib

**Türkiyədə 15 iyul - hərbi çevrilişə cəhddə təqsirləndirilən daha 159 nəfərin cinayəti işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA-nın yerli bürosunun xəbərinə görə, İstanbulda keçirilən prosesdə həmin vaxt Atatürk Hava limanını tutmaqda təqsirləndirilən şəxslərə hökm oxunub. Hökmə əsasən, 43 nəfər azadlıqdan ömürlük məhrum edilib, 76 nəfərə 12 il 6 ay aylıq həbs cəzası verilib. Digərləri müxtəlif cəzalara məhkum edilib.

Qeyd edək ki, 2016-cı il iyulun 15-də Türkiyədə FETÖ terror təşkilatı hərbi çevrilişə cəhd edib. Çevrilişin qarşısını almağa çalışan 250 nəfər həlak olub, 2 mindən çox şəxs yaralanıb. Bu iş üzrə 540 min iş üzrə istintaq aparılıb, on minlərlə şəxs həbs olunub. FETÖ üzvlərinin aşkarlanması və həbsi istiqamətində tədbirlər davam edir.

## Bu ilin 6 ayında 343 nəfər İİV-ə yoluxub, onların 34-ü narkomandır

**Səhiyyə Nazirliyi QİÇS-lə Mübarizə Mərkəzinin məlumatına əsasən, Azərbaycan vətəndaşları arasında 2019-cu ilin 6 ayı ərzində İİV-ə yoluxma hallarının 9,9%-i, ümumiliklə isə 1992-01.07.2019-cu il tarixədək yoluxma hallarının 42,2%-i inyeksion narkotik istifadəsi nəticəsində baş verib.**

«Trend»in məlumatına görə, bu barədə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının hesabatında göstərilib.

Məlumata görə, ümumilikdə 1988-ci ildən İİV-infeksiyası aşkar olunmuş 7762 nəfərdən, 3222 xəstə, inyeksion narkotik istifadəçiləri olublar ki, onların da 2556 nəfəri (79,3%) dispanser qeydiyyatına götürülüb.

Eyni zamanda ölkədə İİV-ə narkomanların yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. 2019-cu ilin 6 ayında İİV-ə yoluxmuş 343 nəfər Azərbaycan vətəndaşının 34 (9,9%) nəfəri inyeksion narkotik istifadəçisi olub.

YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019

# "Anam daha yaxşı müəllim olacaq..."

## İmtahan həyəcanı, gülən və narahat baxışlar

**- Kimi gözləyirsən?**
**- Anamı.**
**- Səncə, anan yaxşı müəllim olmağı bacaracaq, yoxsa...?**
**- Anam daha yaxşı müəllim olacaq. Mən ona inanıram.**

Bu, balaca Sahibə ilə aramızda yaşanan kiçik bir dialoqdur. 8 yaşlı Sahibənin anası Arzu İsmayılova (ad şərtidir) iyulun 17-də ibtidai sinif üzrə müəllimlərin işə qəbulu imtahanlarında iştirak edirdi...

İmtahanlar Azərbaycan Dövlət Texniki Universitetinin idman zalında keçirilir. İmtahan prosesini izləmək üçün biz də həmin məkana yollanmışıq. İmtahan keçirilən binanın ətrafında böyük bir izdiham vardı: Kimi qızını, kimi bacısını, kimi anasını, kimisi də həyat yoldaşını imtahana gətirib. İndi isə həyəcanla onun üzündə gülüşlə imtahan zalından çıxmasını gözləyir.



**Ən gənci 17 yaş, ən yaşlısı isə 64 yaşındadır**

Xatırladaq ki, iyulun 8-dən start verilən müəllimlərin işə qəbulu imtahanlarının artıq doqquzuncu günüdür. Bu gün ibtidai sinif müəllimi olmaq istəyən namizədlər imtahan verir. İmtahanlarda



3 280 nəfərin iştirakı gözlənilir.

Bu il müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirakla bağlı 54 687 namizəd elektron qeydiyyatdan keçib. Müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsində isə 48 204 namizəd iştirak hüququ qazanıb. Onlardan ən gənci 17, ən yaşlısı isə 64 yaşındadır. İbtidai sinif müəllimi olmaq istəyən namizədlərin bir qismi də sabah imtahan verəcək.

**İlkin mərhələdə 7 mindən çox vakant yer elan ediləcək**

İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov bizimlə söhbətində bildirdi ki, bu il də əvvəlki illərlə müqayisədə müəllim adını qazanmaq istəyən namizədlərin sayında artım dinamikası müşahidə olunur.



**Eşqi Bağırov deyir ki, vakant yerlər iyulun 26-dan sonra elan ediləcək:** "İlkin məlumata görə, ölkə üzrə 7 mindən çox vakant yer çıxarılacaq. Bu rəqəm ilkin mərhələ üçün nəzərdə tutulan vakant yerlərin sayıdır. Yeni yaranan yerlər əlavə yerləşdirmə mərhələsi üçün elan ediləcək. İmtahanlar yekunlaşdıqdan sonra isə apelyasiya mərhələsi başlayacaq. Test imtahanları ilə bağlı şəxslərin apelyasiya müraciətlərinə baxılacaq. Sonra vakant yer seçimi prosesi həyata keçiriləcək. Vakant yeri qazanmaq hüququ əldə edən şəxslər müsahibəyə dəvət olunacaqlar".

**Eşqi Bağırovun sözlərinə görə, elə indi də imtahanlarla bağlı nazirliyə müraciət edənlər az deyil:** "Əsasən imtahan nəticələrindən narazı olanlar müraciət edirlər. Bəziləri sualların çətin olduğundan şikayətlənir, amma bütün suallar hər bir fənnin proqramına uyğun ali və ümumtəhsil müəssisələrində çalışan ekspertlər tərəfindən hazırlanıb. Dəfələrlə ekspertizadan keçirilib. Ona görə suallarda hər hansı bir problem yoxdur. Sualla bağlı problem yarandığı təqdirdə imtahan zalında nəzarətçilər, ya da fənn ekspertləri tərəfindən dərhal rəy bildirilir".

**"Ona hər cür dəstək olmuşam"**

**... Artıq imtahan 1 saatdan çoxdur ki, davam edir. Həyat yoldaşını gözləyən Asim Axundov (ad şərtidir) xanımına hər cür dəstək olduğunu deyir. Asim həyat yoldaşına inanmaqla ona motivasiya olmağa çalışdığını deyir:** "Lənkərandan gəlmişik. İmtahana girəndə xeyli həyəcanlı idi. Amma mən ona çox inanıram. Bilirəm ki, istəyinə çatacaq. Çox sevinərəm ki, xanımım müəllimlik kimi şərəfli bir peşəyə yiyələnə bilsin".



Asimlə söhbətimizdən sonra ətrafa nəzər yetirirdim ki, birdən bir canfəşanlıq şahidi oldum. Demə, imtahanda iştirak edən üç nəfər yüksək nəticə əldə edib. İmtahan zalından sevinə-sevinə çıxan həmin namizədlərə yaxınlaşıram.



**"Axır ki, məqsədimə çatdım..."**

**Aydə Mikayılzadə imtahanda yüksək nəticə göstərdiyi üçün çox sevinir. Növbəti-müsahibə mərhələsindən də uğurla keçəcəyinə inanır:** "2017-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci bitirmişəm. Bir dəfə də müəllimlərin işə qəbulu imtahanında iştirak etmişdim, ancaq 39 bal toplamışdım. Əsl müəllim adını qazanmağa çalışacağam".



**58 bal toplayaraq yüksək nəticə göstərənlərdən biri də Günel Məmmədovadır. 2017-ci ildə Bakı Humanitar Kolleci bitirib. 2 dəfə müəllimlərin işə qəbulu imtahanlarında iştirak etsə də istədiyi nəticəni əldə edə bilməyib:** "Builki imtahanlarda 60 bal toplayacağımı qarşıma məqsəd qoydum və 58 bal toplayaraq məqsədimə az da olsa yaxınlaşdım. Suallar da normal idi, heç bir çətinlik yaşamadım. İnşallah, müsahibədən də uğurla keçərək müəllim adına layiq olduğumu sübut edəcəyəm".

**Digər uğur qazanan namizəd isə Lalə Babayevadır. Dediyinə görə, elə bu cür nəticə göstərəcəyini də gözləyirmiş:** "Suallar mənə çətin gəlmədi və hər birini asanlıqla cavablandırdım. Sonda gözlədiyim nəticəni əldə etdiyim üçün çox sevinirəm".

**5 nəfər 58 bal, 13 nəfər isə 57 bal toplayıb**



**Söhbətimizi Təhsil Nazirliyinin İctimaiyyətlə Əlaqələr sektorunun müdiri Cəsarət Valehovla davam etdiririk. Cəsarət Valehov deyir ki, imtahan prosesinin rahat və problemsiz şəkildə həyata keçirilməsi üçün hər cür şərait yaradılıb:** "İmtahan verənlərin və yaxınlarının gözləməsi üçün foyedə xüsusi yer hazırlanıb. Təcili tibbi yardım xidməti də təşkil edilib. Bu gün burada Azərbaycan müəlliminin seçim prosesi həyata keçirilir. Bu, çox əhəmiyyətli bir işdir. İmtahan suallarının hazırlanması ilə xüsusi ekspert qrupu məşğul olur. İmtahan zamanı yaşana biləcək neqativ hallarla bağlı namizədlər nəzarətçilərə müraciət edirlər".

Cəsarət Valehov əlavə edir ki, bu günə qədər keçirilən imtahanlarda iştirak etmiş namizədlərdən 5 nəfər 58, 13 nəfər isə 57 bal toplayaraq yüksək nəticə əldə edib.

**Müəllimlik peşəsinə maraq artıb**

Cəsarət Valehovun sözlərinə görə, 2018-2019-cu tədris ilinə ümumilikdə müddətsiz müqavilə əsasında 4053 nəfər, müddətli müqavilə əsasında 4500 müəllim işə qəbul edilib ki, bu da son illərdə vakant yerlərin 100 faiz tutulması baxımından ən yüksək göstərici olub. 2018-ci ildə ümumilikdə 12 mindən çox müəllim həm müddətli, həm də müddətsiz şərtlərlə işə qəbul edilib. Son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul olunub. Son 5 ildə 18136 müəllim işə qəbul olunmuş, onlardan kənd məktəblərində fəaliyyətə başlayıb 11600 nəfərinə (64 faiz) hökumətin qərarı ilə həvəsləndirmə tədbirləri tətbiq edilib. 2018-ci ildə 500 və daha artıq bal toplayan məzunlar arasında müəllimlik ixtisasını seçənlərin sayı 2090 nəfər olub ki, bu da 2013-cü ilə nisbətən 2,3 dəfə, ötən ilə nisbətən isə 53,6 faiz artım deməkdir.

**İmtahan prosesini izləyib, işimizi yekunlaşdırdıqdan sonra gələcəyimizi rahatlıqla etibar edə biləcəyimiz savadlı, müəllim adına layiqli şəxslərin seçiləcəyinə böyük ümidlə imtahan məkanından uzaqlaşırıq. Layiq olanlar uğur qazansın!**

❑ **Musavat.com**





YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019



# "Əmi, açarı qoy get"

Samir SARI

**Yol polisinin avtomobil sahiblərinə son müraciəti çox aktual və mühümdür. Zarafat eləmirəm. Gerçəkdən elədir.**

Doğrudan da "bir çox hallarda avtomobil sahibləri təmir və ya avtoyuma məntəqələrinin xidmətlərindən istifadə edərkən nəqliyyat vasitəsinin açarlarını da məntəqə işçilərinə verərək oranı tərk edirlər". BDYPİ bunu yerində qeyd edir.

Bu isə qətiyyən olmaz. Çünki bəzən həmin məntəqələrdə çalışan gicqulu və məsuliyyətsiz gənclər fikirləşirlər ki, Allah qismətlərini yetirib, müftə maşındır, minib bir az şellənsinlər, sevdikləri qızın məhəlləsinə gedib bir "kruq" vursunlar, "dayoğluya dəyib gəlsinlər" və sair və ilaxır.

Buna müştərinin etibarından sui-istifadə etmək deyərlər. Özlüyündə bu, inzibati xətadır, qəbahətdir. Amma məsələ bir şellənib qayıtmaqla bitsəydi, nə vardı ki?

Elə olmur. Maşın sürmək hüququ və təcrübəsi olmayan gənclər "mal özgənin, yol özgənin" moduna girir, arada "ə, qaqa, görən bu 200-lə gedər, yoxsa yalandan yazıblar" sualı ilə çıxış edir, lap axırda məşhur "indi, bax, gör, qaqan nağayrajaq" deyə Alonsoluq etmək istəyir və camaatın maşınını becəririlər.

İndiyədək yüzlərlə belə hadisə olub. Hər halda, bu yayğın hadisə olmasaydı, BDYPİ avtomobil sürücülərinə xüsusi müraciət etməzdi.

O cür, müştərinin etibarından sui-istifadə edərək, onun maşınını yumazdan əvvəl minib yola çıxan, aparıb başqa maşına çırpıb pis günə salanlardan birini uzaqdan-uzağa tanıyırdım. Əsgərlikdən yeni gəlmiş gənc idi, "babat iş tapıb düzələnə qədər" avtoyuma sexində çalışırdı. İntəhası, gədə bir az ağıldan qıvraq idi, bahalı maşınlara həsədlə baxar, "keşkə biri mənim də olsaydı" deyə-deyə işini görərdi. Ona "vaxt gələr, sənin də maşının olar, oturub sürərsən" deyənlərə gəncin hazır cavabı vardı: "Ay əmi, mənə indi lazımdır e maşın, yaş keçəndən sonra neynirəm? İndi lazımdır ki, oturum şellənim, yanımda da bir "bas qaza, aşkım, bas qaza" deyən olsun".

Fəqət o, özgə maşınında oturub qaza basdığı ilk gündəcə həm müştərinin bahalı maşınını, həm də yoluna çıxan ortabab avtomobili, türkün sözü, xurdaya döndərib, dincəldi. Arada deyirdilər, atası evini satlığa çıxarıb ki, oğlunun canını maşın yiyələrindən qurtarsın. Yoxsa onun xətasını gəncliyinə bağışlamaq istəyən yoxmuş. Bəlkə də artıq o borclarını verib qurtarıb. 7-8 ilin söhbətidir.

Yəni bir ağılsız hərəkətlə gənc adam 7-8 illik zəhmətini bir saniyənin içində puç edə bilir. "Hessad olmaz, bir az sürüb, gətirib qoyacam yerinə" deməklə olmur.

Ona görə də BDYPİ düz deyir ki, maşının açarını gənclərə verib getməyin, onlara sizin etibarınızdan sui-istifadə etmək şəraiti yaratmayın.

Şəxsən mən yol polisi deməmişdən 10 il əvvəldən bu cür edirəm. Cəmi bir dəfə maşının açarını yuyucuya verib getmişəm, onda da, bir həftədən sonra diqqət eləmişəm ki, maşının domkratı yoxdur. Yol keçəndə həmin yuyucu sexinə döndüm ki, domkratın taleyini xəbər alım. Gördüm ki, həmin gəncləri işdən qovublar, yerində başqaları işləyir. Vəssalam. Odur, budur, təmirçilərin də, maşın yuyanların da yanında dururam.

Neçə dəfə olub ki, usta və ya yuyucu mənə deyib: "Əmi, burda bir-iki saatlıq iş var, sən get, dincəl, iki saatdan sonra gəlib götürərsən". Guya ki, mənə canı yanır. Mən də deyirəm, eybi yoxdur, sən işini gör, mən sənə mane olmaram.

Bir dəfə bir dostum 3-4 günlüyə xaricə gedəndə maşını aparıb tanış ustaya vermişdi ki, o, qayıdıb gələnədək nə qədər xırım-xırda işi varsa, görsün. Adam təyyarəyə oturub havaya qalxmamış, usta maşına oturub rayona getmişdi.

Bu işlər belədir. Heç nəyi kiminsə vicdanına, insafına buraxmaq olmaz. Gərək nəzarət edəsən. Nəzarət etmədinsə, mütləq etibarından sui-istifadə edəcəklər. Ondan sonra ha çığır-bağır sal, ha söy, söylən. Xeyri yoxdur.

Odur ki, yuyucu sizə "əmi, açarı qoy get" deyirsə, bilin ki, nəsə bir pis niyyəti var.

# "RAİ bəyanatlarla deyil, həyata keçirdiyi müsbət işləri ilə gündəmdə olacaq"

## Rusiya Azərbaycanlıları İttifaqı iki ölkənin münasibətlərinə dair tədbir keçirdi

**Beynəlxalq Mətbuat Mərkəzində (BMM) Rusiya Azərbaycanlıları İttifaqının (RAİ) təşəbbüsü ilə "Rusiya-Azərbaycan münasibətlərində diaspor vacib amil kimi: KİV-in rolu və müasir proseslər" adlı tədbir keçirilib.**

Musavat.com xəbər verir ki, ictimai-siyasi xadimlər, alimlər, ekspertlər, media və QHT nümayəndələrinin qatıldığı tədbirdə Rusiya-Azərbaycan münasibətlərinin mühüm aspektləri müzakirə edilib.

Tədbiri giriş sözü ilə açan **Rusiya Azərbaycanlıları İttifaqının mətbuat xidmətinin rəhbəri Anar Həsənov** konfransın məqsədləri haqqında ətraflı məlumat verib. O, Rusiyada yenidən təşkilatlanma mərhələsində olan Azərbaycan diasporunun fəaliyyətində medianın mühüm rol oynadığını qeyd edib:

"Rusiyadakı regional diaspor təşkilatları yekdilliklə xeyriyyəçi iş adamı, 30 ildən çoxdur ki, diaspora fəaliyyəti ilə məşğul olan Füzuli Məmmədovu Rusiya Azərbaycanlıları İttifaqının sədri seçdilər.

Rusiyanın bır sıra dövlət rəsmiləri Azərbaycan haqqında artıq müsbət mesajlar səsləndirirlər. Bu, belə də olmalıdır. Ancaq əsas məsələ Rusiya vətəndaş cəmiyyətinin də Azərbaycan haqqında münasibətinin müsbətə doğru dəyişməsinə nail olmaqdır. Biz bu istiqamətdə çalışırıq. Rusiya telekanallarına çıxa bilən azərbaycanlı ekspertlərin sayı artmalıdır. Buradakı görüşlərimizdə də bunun zəruriliyini bizə açıq şəkildə bildirirlər. Bizim çox güclü insan kapitalımız və potensialımız var. Ona görə də, hesab edirəm ki, yaxın zamanlarda bu məsələ də öz həllini tapacaq. Biz Rusiya telekanalları ilə görüşlər keçiririk. Görüşlərin əsas məqsədi odur ki, Rusiya teleməkanında ekspert kimi təmsil olunan azərbaycanlıların sayı çox olsun. Bu ekspertlər Rusiyanı dərindən bilən insanlar olmalıdır. Onlar Azərbaycan adına müsbət dividentlər gətirməlidirlər. Belə adamlarımız da var".

**A.Həsənov bildirib ki, Rusiya Azərbaycanlıları İttifaqı Rusiyanın 56 regionunu əhatə edir:**

"Bu proses davam edir. Ümid edirik ki, yaxın zamanlarda təşkilat rəsmi qeydiyyatdan keçəcək və bunu yüksək səviyyədə qeyd edəcəyik. Rusiya Azərbaycanlıları İttifaqı zərurətdən doğdu. İki ay ərzində biz Rusiyada həm ictimai, həm də mədəni tədbirlər həyata keçirmişik. Tədbirlərimizdən ən vacibi deyərdim ki, Rusiyanın tarixi hotellərindən birində biz Respublika günümüzü qeyd etdik. Həmin tədbirdə Rusiya Dövlət Dumasının deputatları, ekspertləri, Federasiya Şurasının ekspertləri iştirak etdilər. Eyni zamanda Moskva şəhərində qeydiyyatdan keçmiş diaspora təşkilatlarının rəhbərləri də həmin tədbirə qatıldılar. Biz həmişə deyirik ki, Azərbaycanın ünvanına daha çox Rusiyadan rəsmilər xoş sözlər ünvanlayırlar. Bu, belə də olmalıdır. Ancaq bizim məqsədimiz odur ki, həm də vətəndaş cəmiyyətindən ölkəmizə bu cür mesajlar ünvanlansın. İstəyirik ki, Rusiyanın vətəndaş cəmiyyəti ilə çox sıx əlaqədə işləyək. Bu da bizim fəaliyyətimizin istiqamətlərindən biridir. Diaspora çox vacib amildir. Bunu biz qonşularımızın da fəaliyyətində görə bilərik. Qarabağ məsələsi bizim üçün milli-mənəvi dəyər məsələsidir. Çalışırıq ki, bu həqiqətləri Rusiya xalqına çatdıraq".

Anar Həsənovun sözlərinə görə, RAİ bəyanatlarla deyil, həyata keçirdiyi müsbət işləri ilə gündəmdə olacaq.

**Çıxış edən Slavyan Universitetinin Jurnalistika fakültəsinin dekanı Şəhla Həsənova diaspor fəaliyyətinin olduqca vacib olduğunu vurğuladı:** "Digər xalqlara həqiqətlərimizi aşılamaq üçün özümüz bu faktları dərindən bilməliyik. Hər şey insan amilindən başlayır. Diaspora fəaliyyətində də elə insanlar olmalıdır ki, onlar Rusiya ilə sıx təmasda olub, Azərbaycanın Rusiya üçün maraqlı tərəflərini göstərə bilsinlər".

**Tədbirdə çıxış edən deputat Aydın Hüseynov Azərbaycanın xarici siyasətinin həyata keçirilməsində diaspora təşkilatlarının mühüm rol oynadığını vurğuladı. O söylədi ki, ermənilər Rusiya məkanında olduqca aktivdirlər:** "Diaspor təşkilatlarının əsas istiqamətlərindən biri də mövcud olduqları ölkələrlə Azərbaycan arasında münasibətlər qurmaq, qarşılıqlı əlaqələrin genişləndirilməsinə töhfə verməkdir. Bildiyiniz kimi, ermənilərin xarici ölkələrdə güclü lobbiləri var. Onlar çalışırlar ki, yaşadıqları ölkələrin Azərbaycanla münasibətlərini korlasınlar. Diaspora təşkilatlarımız həm də erməni lobbisinə qarşı ardıcıllıqla mübarizə aparmalıdırlar".

Tədbirdə eyni zamanda teleaparıcı Turan İbrahimov da çıxış edərək, diaspora fəaliyyətinin ölkələr üçün vacibliyindən danışdı.










Tədbirin sonunda Rusiya Azərbaycanlıları İttifaqının təşəbbüsü və maliyyə dəstəyi ilə fəaliyyətə başlayan Azunion.org saytı da təqdim olundu.

❑ Əli RAİS,
"Yenİ Müsavat"

Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019

# "Cəmiyyətdə pullu adam düşmən obrazı kimi formalaşdırılır"

## Hadi Rəcəbli: "ABŞ-da milyonu olmayan adama deputatlığa namizədliyini irəli sürməyə icazə vermirlər"

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Yeni Müsavat"a geniş müsahibə verib. Komitə rəhbəri dövlət başçısının imzaladığı sərəncamlardan danışıb, əhalinin rifahına yönəlik növbəti addımların anonsunu verib, həmçinin özünün keçdiyi həyat yolunadək bir çox məsələlərdən danışıb, səmimi etiraflar edib. Olduqca maraqlı məqamlarla zəngin olan müsahibəni təqdim edirik.**

***- Hadi müəllim, sizinlə sonuncu müsahibəmizdə növbəti sərəncamların anonsunu vermişdiniz. Çox keçmədi ki, prezident mühüm qərarlar verdi, necə deyərlər, söhbətimiz düşərli oldu. Bu mənada növbəti müsahibəmizdə də xoş xəbərlərin anonsunu eşidəcəyimizi güman edirəm.***

- Əslində bu anonslar möhtərəm prezidentimiz İlham Əliyev cənablarının həmən ərəfədə dəfələrlə səsləndirdiyi sosial müdafiənin gücləndirilməsi, əmək haqlarının və pensiyaların artırılması ilə bağlı fikirlərinin həyata vəsiqə alması ilə tamamlandı. Bunlar nədən olur? Bizim məsələlərə elmi əsaslarla münasibət bəsləməyimiz, populizmdən kənar fikirlər səsləndirməyimiz, Azərbaycanın reallığı ilə bağlı ölçülü-biçili fikirlərimiz hamısı, əlbəttə, son nəticədə möhtərəm prezidentimizin də düşündüyü məqamlardır. Nə üçün biz prezidentin komandasındayıq? Nə üçün prezidenti təbliğ edirik, nə üçün sevirik? Çünki biz prezidentimizin baş xəttini görürük, onu daim hiss edirik və o xəttə daim layiqincə xidmət etməyə çalışırıq. Beləliklə, həmin o ideyaların ortaya çıxmasının bir səbəbi də bizim xalqın düşüncələrini ifadə etməyimizdir. Biz populist danışmırıq, xoşa gəlmək üçün söz demirik, fantastik, utopik rəqəmlərdən bəhs etmirik. Reallığa və ölkədəki sosial siyasətin baş xəttinə uyğun olaraq fikirlər səsləndiririk. O fikirlər də sonda möhtərəm prezidentimiz tərəfindən nəzərə alınır və biz buna sevinirik.

***- Dediyiniz kimi, ilin ilk yarısında prezident bir sıra artımlarla bağlı sərəncamlar verdi, bəzilərinin tətbiqinə payız aylarından başlanacaq. 2019-cu il üçün artımlar bitdimi?***

- Yox, hələ heç nə demək olmaz. Hələ sosial müdafiə sisteminin digər sahələri var, toxunulmayıb. Onlara da zaman-zaman baxılır. Məsələn, möhtərəm prezidentimiz DOST və ASAN Xidmətlə bağlı qanunlara yeni düzəlişlər elədi ki, daha hansı qrupları yenidən belə xidmətlərə cəlb etmək olar. Yeni bu cür addımlar atılacaq və biz onların faydasını görəcəyik. Bu addımların davamı olacaq. Davamının olacağının təzahürləri odur ki, bu günlər gələn ilin büdcəsi nazirliklərdə və Nazirlər Kabinetində müzakirə olunur. O müzakirələrin gedişində də mənim irəli sürdüyüm bəzi ideyalar gələn ilin büdcə zərfində həyata vəsiqə alacaqdır. İnşallah, biz bu rəqəmləri noyabr ayında dinləyə biləcəyik.

***- Konkretləşdirsək...***

- Orada da bəzi məsələlər gözlənilir. Hesab edirəm ki, yaşayış minimumu rəqəmi mütləq artacaq. Mən qabaqcadan bunun proqnozunu verirəm. Bizim istədiyimiz yaşayış minimumunun reallıqlara daha məqbul, yaxın olmasıdır. Statistika Komitəsi ilə İqtisadi İnkişaf Nazirliyi birgə bazardakı qiymətlərlə, reallıqlarla, rəqəmləri ölçüb-biçməklə yaşayış minimumu göstəricisini müəyyənləşdirirlər. Mən bunu xüsusi vurğulamaq istərdim ki, beynəlxalq standartlara uyğun olaraq məhz yaşayış minimumu bizə təqdim olunur. Bizim də onlarla mübahisə etməyə sözümüz qalmır, çünki onlar dünya standartlarını, digər məsələləri əsas götürürlər. Bizə də daim deyirlər ki, bu hesablamalar axı minimumdur.






## "Yaşayış minimumu və minimum əmək haqqının artması ehtimalı var"

***- Yaşayış minimumu neçə manata qaldırılacaq?***

- Ən aşağısı 200 manat ola bilər. Mümkündür bundan da çox olsun. Nə üçün? Bu gün real bazar qiymətlərinin hesablanması və istehlak səbətinin standartları var. Yeni neçə kalori nə yeyilməlidir, nə geyilməlidir, digər məsrəflər və s. Biz deyirik ki, gəlin bu standartdan da bir az kənara çıxaq, istehlak təlabatını bir az yüksək götürək, nə olar?

***- O halda yenidən minimum əmək haqqı arta bilərmi?***

- Məntiqi olaraq. Ehtimal var ki, artsın. Onu biz indi deyə bilmərik, gələn ilin fevralında deyiləcək. Lakin mən təminat verirəm onun da artım ehtimalı var. Yaşayış minimumu və minimum əmək haqqının artması ehtimalı var. Bugünkü büdcənin müzakirələri bir daha onu göstərir. Digər tərəfdən, büdcəyə daxil olan əlavə, real məbləğlər, gömrükdən, vergidən daxil olan vəsaitlər, Sosial Sığorta Fondunun özünün yığım imkanlarının artması... Görürsünüz, onlar son 5 ayda əlavə 350 milyon vəsait toplamışdılar. Buna görə də biz onlar üçün dövlət büdcəsindən ayrılan dotasiyasını azaltdıq. Düşünürəm ki, ilin sonunadək də bu artım yüksələcək, gələn il üçün də bu ehtimallar var. Əgər biz Sığorta Fondunu dotasiyadan azad etsək - biz ora 1,5 milyard əlavə pul veririk - hətta biz onları yarıbayarı bu vəsaitdən azad etsək, o vəsait yenə də adamlarımıza qayıdacaq.

***- Bu, nəyin hesabına oldu?***

- Özəl bölmədə vətəndaşın vergi yükünü demək olar ki, sıfıra endirdik. Vətəndaş vergi ödəmir. Həmçinin Sığorta Fonduna 22 faiz, 3 faiz məsələsi var idi, onlar da götürüldü, çünki sahibkar onları da gizlədirdi. Gəldi sahibkara haradasa 10 faiz düşdü, 10 faiz də sığorta olunana. Beləliklə, burada da tənzimləmə getdi. Vətəndaş da bildi ki, sığorta olunarsa, onun pensiya məsələsi həll olunar, müavinət ala bilər. Beləliklə, burada aparılan islahatın nəticəsi özünü göstərdi. Biz gələn il yenə də bu addımları atacağıq. Təbii ki, pensiyada, minimum əmək haqqında və bütövlükdə əmək haqqında da müsbət fərq olmalıdır. Gələn il üçün ən aktual məsələlərdən biri də orta və kiçik sahibkarlığın daha da inkişaf etdirilməsi, özünüməşğulluğun geniş vüsət almasıdır. 2-3 il bundan qabaq mən deyəndə ki, ünvanlı yardım əvəzinə özünüməşğulluq proqramına keçib, kəndlərdə, dağ yerlərində bu adamlara qoyun versinlər, o fikrimi nə qədər təhrif edib lağa qoyanlar oldu, bu, mənə nə qədər pis təsir etdi. Amma siz görürsünüz, o ideyalar həyata keçir. Yadınıza gəlir, mən maliyyə nazirinin yanında yaşayış minimumu ilə bağlı təklif verəndə kəskin şəkildə etirazlar olurdu. Minimum əmək haqqının qaldırılmasının adını çəkmək olmurdu. Amma görürsünüz, zaman və prezidentimizin istəyinin bizim istəyimizlə üst-üstə düşməsi çox şeyi yoluna qoydu. Beləliklə, artımların davamı olacaq.

***- Hadi müəllim, deputat həmkarınız Tahir Kərimli parlamentin növbədənkənar sessiyasında iqtisadi amnistiya çağırışı etdi. Əslində məntiqli təklifdir. Azərbaycan varlı ölkə, gəlirləri yüksək məmləkət olmasına baxmayaraq, hansısa bir Azərbaycan vətəndaşının adını dünyanın varlıları siyahısında görmürük. Bəlkə də nədənsə ehtiyat etdikləri üçün varlılar da gəlirlərini açıqlamırlar. Hansı ki, "Forbes"in siyahısında 6 azərbaycanlı var, amma başqa ölkələrin vətəndaşı. Niyə Azərbaycan vətəndaşlarını görmürük o sırada?***

- Çox maraqlı, dünyəvi mövzudur. Bunu dünya yaşayıb. İnkişaf etmiş ölkələr bunu ilk addımlarında hiss ediblər. Rokfellerə sual edirlər ki, sən necə milyarder oldun? Dedi ki, mənə birinci milyonu necə əldə etdiyim barədə sual verməyin, qalan milyonlarım haqqında danışacağam. Digər tərəfdən, ABŞ-ın kapitalı 1929-cu ildə qanqsterlərin pulu üzərində quruldu. Dünya onu keçdi. Yaxud hamımıza tanış olan "Ozalın özəl proqramı"na baxın. Bodrumun, Antalyanın, ümumiyyətlə, Türkiyə iqtisadiyyatının köklü surətdə dəyişməsinin əsasında nə durdurdu? Turqut Ozal elan etdi: dünyada yaşayan türklər, həmçinin ölkədəkilər, kim istəyirsə ölkədaxili istehsala yatırım gətirib ayırır, onların qoyduğu vəsaitə rəsmi amnistiya verilir, o vəsaitin heç bir sorğusunu aparmırlar, qeydiyyata alırlar, soruşmurlar ki, bu vəsaiti haradan, necə gətirmisən? Bax, dünyada belə təcrübə var. Əlbəttə, Azərbaycanda da ola bilər. Amma bütün hallarda bu gün Azərbaycanda nə pisdir, mən nəyə təəssüf edirəm? Azərbaycanda nə mətbuat, nə bələdiyyələr, nə QHT-lər cəmiyyətə pullu adamın heç halal gəlirlərini belə təbliğ etmirlər. Cəmiyyətdə pullu adam obrazı düşmən obrazı kimi formalaşdırılır. Pulu olan adam korrupsioner kimi təqdim olunur. İmkanı olan adama mütləq pis gözlə baxılır. Sual vermək lazımdır: o imkanı necə əldə edib? Kimi deyirsinizsə, soruşaq, görək o pulu necə qazanıb? Korrupsionerlər isə məntiqi olaraq ölkə qanunlarına uyğun olaraq cəzalanmalıdır, günahlarına görə cəzalanmalıdır.

***- Kim?***

- Cahangir (Hacıyev-red.), nə bilim kimdir, həbs etdilər. Yaxud başqa korrupsioner işdən qovuldu. Nə yaxşıdır? Azərbaycanda qadağa qoyaq, aparsın pulunu qoysun İngiltərəyə, ya Dubaya? Hansı yolu seçək? Bəli, gəlin bizdə ölçülü-biçili amnistiya eləyək. Gəlin hansısa məqamda o vəsaitlərin qeydə alınmasına gedək. İnanın, bunların böyük əksəriyyəti zirək adamlardır. Amerikada milyonu olmayan adama prezidentliyə, deputatlığa namizədliyini irəli sürməyə icazə vermirlər. Sənin milyonun yoxdursa, necə namizədliyini verə bilərsən?

***- Bu məntiqlə bizdə nə qədər milyonçu var?***

- Mən o rəqəmi deyə bilmərəm.

***- Hər halda, 10 milyonçu, milyarder ortaya çıxıb konkret təkliflərlə çıxış etsə, bölgələrdə işlər qursalar, bu, həm dövlətin yükünü azaldar, həm də Hadi Rəcəbliyə gələn müraciətlərin sayına təsir edər. Elə deyil?***

- O adamlar bu gün də həmin işləri görürlər. Onlara şərait da yaradılır. Bölgələrdəki işləri görürük, amma bir az qeyri-rəsmi olur, amma bütün hallarda həmin vəsaitlərin Azərbaycanda qalmasına imkan yaradılır. O vəsaitlərin Azərbaycandan çıxmaması üçün də şərait var. Bax, görürsən, çayçılığın, pambıqçılığın inkişafı göz önündədir. Əlbəttə, mən də düşünürəm ki, elə sahələr var, əmək tutumludur, onlarla bağlı müəyyən, kənd təsərrüfatı və emal müəssisələrinə kredit faizi güzəştlidir. Dövlət buna şərait yaradıb ki, əmək tutumlu iş yerləri yarat. Eyni zamanda biz sahibkarlara da şərait yaratmalıyıq. Kiçik və orta biznesə isə güzəştli kredit yox e... O adamlar üçün yaşıl işıq yandırmalıyıq. İcra başçılarının işinə verilən qiymət onunla olmalıdır ki, kimin ərazisində nə qədər iş yeri yaradılıb, kimin ərazisində nə qədər kiçik və orta sahibkarlıq formalaşıb. Sovet vaxtı bizdən nə soruşurdular: taxıl planı, ya süd planı necədir, heyvandarlıqda doğum faizi necədir? O vaxt birinci katiblərə bu göstəricilərə görə orden, medal, "keçici bayraq" verirdilər, həvəsləndirirdilər. İndi nə ilə həvəsləndiririk? Təklif edirəm ki, bu gün icra başçılarının ən yüksək göstəricisi sahibkarlığa necə şərait yaratması olmalıdır. Məsələn, Lənkəranın icra başçısı investorların bölgəyə gəlməsinə şərait yaradır, mane olmur. Orada liberal elementlər var ki, adam gəlsin, işləsin, vəsait qoysun, iş yeri yaratsın. Bu bizim prezidentin də istəyi və tələbidir.

***- Hadi müəllim, yay mövsümündə yenə də Xəzərin hasarlanması geniş müzakirə olunur və çıxış yolları aranır. Yeri gəlmişkən, sizin də uşaqlığınız dəniz sahilində keçib. Bu sahədə qayda-qanun yaradılması üçün nə təklif edirsiniz?***

- Əslində burada bir az məntiqsizlik var. Bu gün Xəzərin hər hansı bir yerində özəl sektorun əli yoxdursa, gedək, o çimərliyə baxaq, görək orada vəziyyət necədir: plastik qablarla, qarpız qabıqları ilə dolu, bağışlayın məni, qumun üstündə tualet... Əlbəttə, mən razıyam ki, dəniz vətəndaşlar üçün açıq olmalıdır, bunun forması tapılmalıdır.

***- Şəxsən sizin konkret təklifiniz varmı?***

*(Davamı növbəti sayımızda)*

❑ **Elşad PAŞASOY,**
**FOTO: "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019

# İlahiyyat İnstitutu media orqanlarını mükafatlandırdı

**Rektor Ceyhun Məmmədov:** "KİV-lə yaxından əməkdaşlıq edirik"

**İyulun 17-də İlahiyyat İnstitutunun təşkilatçılığı ilə Beynəlxalq Mətbuat Mərkəzində 22 iyul - Milli Mətbuat Günü münasibətilə tədbir keçirilib. Tədbirdə Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov, media rəhbərləri və jurnalistlər iştirak ediblər.**





**Aİİ rektoru Ceyhun Məmmədov** bildirib ki, İlahiyyat İnstitutu yarandığı bir ildə media ilə yaxından əməkdaşlıq edir. İnstitut yarandıqdan sonra bu təhsil ocağının tanınmasında medianın böyük rolu olduğunu qeyd edən rektor bildirdi ki, media ilə münasibətləri şəffaf qurmağa çalışırlar: "Bu günə qədər 100-dən artıq tədbir, seminar, maarifləndirici tədbir keçirdik. Media nümayəndələri ilə institutumuzda görüş keçirilib. İctimai nəzarət şurasında media əməkdaşları təmsil olunur".

C.Məmmədov deyib ki, ötən bir ildə İlahiyyat İnstitutu ilə sıx əməkdaşlıq edən media orqanlarını mukafatlandırmaq barədə qərar qəbul ediblər.

Daha sonra çıxış edən Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov əvvəlcə media nümayəndələrini qarşıdan gələn Milli Mətbuat Günü münasibətilə təbrik etdi. Ə.Amaşov bildirdi ki, mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız xalqımızın maarifləndirilməsində, milli dəyərlərin təbliğində mühüm vasitə olub. Şura sədri Azərbaycanda medianın inkişafı istiqamətində zəruri tədbirlərin həyata keçirildiyini nəzərə çatdırıb.

Ə.Amaşov bildirdi ki, Həsən bəy Zərdabinin redaktoru olduğu "Əkinçi" qəzeti Azərbaycan xalqının milli şüurunu oyadıb. Həmçinin o, 144 il öncə Azərbaycan mətbuatının əsasını qoyan "Əkinçi" qəzetinin şanlı ənənəsinin bugünkü mətbuatımız tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

**Ə.Amaşov daha sonra bildirib ki, Azərbaycan tolerant ölkədir və respublikamızda mövcud olan bu mühitin təbliğində medianın rolu böyükdür. O qeyd edib ki, xarici qüvvələrin dindən sui-istifadə cəhdlərinin qarşısının alınmasında media nümayəndələrinin fəaliyyəti önəmlidir:** "Dini maariflənmə istiqamətində çox işlər görmək lazımdır. Pir hadisəsi göstərdi ki, maariflənməyə ehtiyac var. İlahiyyat sahəsində yeni kadrlara ümidimiz var. Buna qədər də Azərbaycanda və xaricdə ilahiyyat təhsili alanlar olub. Amma bu təhsil milli olmalıdır. İlahiyyat İnstitutu bu sahədə ilk qaranquş olacaq. İlahiyyat institutu media ilə sıx əməkdaşlıq edir, ilk gündən mediaya kifayət qədər açıq qurumdur. 100 il əvvəl təsəvvür etmək olmazdı ki, bir dini məktəb milli mətbuat gününu qeyd eləsin".

Daha sonra AİI-nin fəaliyyətini obyektiv işiqlandıran, fəallığı ilə seçilən media nümayəndələri təltif olunublar.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# 4 milyard insan sosial müdafiədən məhrumdur

**BMT-nin baş katibi:** "Ölkələr arasında və onların daxilində qeyri-bərabərliyin səviyyəsi yüksək olaraq qalır"




**BMT-nin baş katibi Antonio Quterreş təşkilatın Nyu-Yorkdakı mənzil-qərargahında keçirilən Yüksəksəviyyəli Siyasət Forumunun "nazirlər seqmentinin" iclasında bildirib ki, hazırda planetimizdə 4 milyard insan sosial müdafiədən məhrumdur.**

Onun sözlərinə görə, 2015-ci ildən bəri işsizliyin artması tendensiyası zəifləsə də, maaşların artımında durğunluq hökm sürür, qadınların 30 faizi və gənc kişilərin 13 faizi təhsilsiz və işsizdir.

AzərTAc BMT-nin saytına istinadla xəbər verir ki, A.Quterreş 2030-ci llədək dayanıqlı inkişaf Hədəflərinə dair qəbul olunmuş proqramın uğurlu olması üçün hələ çox işlər görülməli olduğunu vurğulayıb. Baş katib qeyd edib ki, bəzi sahələrdə müəyyən inkişafa nail olunsa da, qlobal inkişaf üzrə vəziyyət o qədər də yaxşı deyil. Ölkələr arasında və onların daxilində qeyri-bərabərliyin səviyyəsi yüksək olaraq qalır.

A.Quterreş gender bərabərliyi məsələsinə də toxunaraq qeyd edib ki, son dörd ildə bu sahədə dünyanın heç bir ölkəsi yetərincə tədbirlər görməyib. "Qadınlar əvvəllər olduğu kimi, indi də ayrı-seçkiliyə şərait yaradan qanunlarla üz-üzədirlər, zorakılığa məruz qalırlar, kişilərə yaradılan imkanlardan məhrumdurlar", deyə baş katib əlavə edib.

BMT-nin rəhbəri vurğulayıb ki, beynəlxalq ictimaiyyət dayanıqlı İnkişaf Hədəflərinə nail olmaq üçün bu sahəyə dövlət və özəl sərmayələrin həcmini artırmalı, qeyr-bərbərliyi azaltmalı, miqrasiya prosesləri üzrə Qlobal müqavilənin şərtlərinə əməl etməli və insan hüquqlarına hörmət etməlidir. O xatırladıb ki, bütün bu mühüm məsələlər BMT Baş Assambleyasının sentyabrda keçiriləcək növbəti sessiyasında müzakirə olunacaq. A.Quterreş hökumətləri bu vacib tədbirə konkret fəaliyyət proqramları ilə gəlməyə çağırıb.

# İŞİD-ə pul verdiyinə görə tutulan azərbaycanlı kimdir - ekspertdən maraqlı açıqlamalar

"Konkret İŞİD-in olmasa da, onun qanadı sayılan qruplara bağlı qüvvələrin bu şəkildə maliyyələşdirildiyi haqda zaman-zaman xəbərlər olub"

**İyulun 16-da Rusiyanın Şimali Qafqaz dairə məhkəməsi əslən azərbaycanlı Erik Şabanovu İŞİD terror təşkilatını maliyyələşdirməkdə təqsirli bilib. Məhkəmə E.Şabanovu terrorçuluğa yardım ittihamı üzrə altı il müddətinə azadlıqdan məhrum edib. O, cəzasını ümumi rejimli koloniyada çəkəcək.**

E.Şabanov Rusiya vətəndaşıdır, Dağıstanın Mahaçqala şəhərində yaşayıb. İstintaqın məlumatına görə, o, 2016-cı ildə İŞİD üzvlərinə 30 min rubl (811 manat) köçürüb.

Qeyd edək ki, Rusiyada İŞİD-ə maliyyə dəstəyi verənlərin ifşa edilməsi ilə bağlı bu birinci fakt deyil.

Hələ 2015-ci ilin noyabrında yayılan rəsmi məlumatda bildirilirdi ki, 2013-2014-cü illərdə 3,5 min Rusiya vətəndaşı terror qruplarına maliyyə vəsaiti ötürüb. Rusiya xüsusi xidmət orqanlarının məlumatında deyilirdi ki, ruslar tərəfindən bu il ərzində İraq və Şam islam Dövləti (İŞİD) terror təşkilatının hesabına 300 milyon rubl (4,5 milyon ABŞ dolları) həcmində vəsait köçürülüb.

Rusiya Maliyyə monitorinqi üzrə Federal Xidmətinə istinadən yayılan xəbərdə isə bildirilirdi ki, bu vəsait əsasən internet, sosial şəbəkələr vasitəsilə İŞİD-ə ötürülür.

Qeyd edilib ki, "Bulqar Salman" ləqəbli Rusiya vətəndaşı internet üzərindən



İlham İsmayıl

Suriyada terror aktları törətmək üçün insanları İŞİD-ə cəlb edib, qruplaşma üçün pul yığırmış. Bundan əlavə, Suriya və İraqa gedən ruslar da pullarını terror təşkilatının hesabına köçürüblər.

2018-ci ilin noyabrında Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) əməkdaşları terrorçu İŞİD qruplaşmasına pul toplayan bir qrupu tutmuşdu. Tomsk vilayəti ərazisində terrorçu İŞİD qruplaşmasının maraqlarına maliyyə yardımı göstərilməsi üçün pul toplamaqda iştirak edən dəstənin fəaliyyəti aşkarlanmışdı.

Bu ilin mayında Rusiyanın Tver şəhərində İŞİD terror təşkilatının maliyyələşdirilməsi şübhəsi ilə üç nəfər saxlanılıb. Bu barədə Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin regional şöbəsi məlumat vermişdi. Əməliyyat "Rosqvardiya"nın xüsusi bölməsi ilə birgə həyata keçirilmişdi. Saxlanılanlar Mərkəzi Asiya respublikalarından birinin vətəndaşları idilər.

Hesab olunur ki, terrorçulara dünyanın 40 ölkəsindən maliyyə dəstəyi verilir. Terror təşkilatına pul köçürmələrinə görə MDB ölkələrindən ilk pillədə Qazaxıstan, sonra Rusiya vətəndaşlarının dayandığı deyilirdi.

**Sabiq MTN polkovniki, təhlükəsizlik eksperti İlham İsmayıl "Yeni Müsavat"a bildirdi ki, Rusiyada həbs edilən Erik Şabanov Azərbaycan vətəndaşı deyil, bununla yanaşı, xaricdəki Azərbaycan vətəndaşları sırasından da İŞİD-ə maliyyə dəstəyi verənlərin olması mümkündür:** "Ciddi araşdırmaq və onları ifşa eləmək lazımdır. Konkret İŞİD-in olmasa da, onun qanadı sayılan qruplara bağlı qüvvələrin bu şəkildə maliyyələşdirildiyi haqda zaman-zaman xəbərlər olub. Ona görə də Azərbaycandan da o cür maliyyə dəstəyi verənlərin olması istisna deyil. Zamanında milli təhlükəsizlik orqanında bu barədə informasiyalar olub. Təəssüf ki, Eldar Mahmudovun nazir olduğu dövrdə bu məsələnin dərininə gedilməyib. İstisna deyil ki, indi də radikal dini qruplara maliyyə dəstəyi vermək kimi halların qalıqları mövcuddur. Bu halın isə Azərbaycan üçün həmişə təhlükəsi var. İŞİD-ə və digər radikal qruplara maliyyə ötürən adamlar özləri birbaşa terrorçu olmasalar da terror üçün maliyyəni ayıra bilirlər və terrorçuların ayaq üstə qalmalarına dəstək olurlar. Pul olmasa terrorçular hərəkət eləyə bilməzlər".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019

# "Dünya sanki tvitlərlə idarə olunur"

## Pənah Hüseyn: "Reallıq bundan ibarətdir ki, sosial şəbəkələr insanların həyatına tam daxil olub və bütün təbəqələr siyasi bilgiləri də buradan əldə edirlər"

**Sosial şəbəkələr, internet, demək olar ki, həyatımızın ayrılmaz hissəsinə çevrilib. Əlaqə yaratmaqdan tutmuş, yeni informasiya əldə etməyə qədər sosial şəbəkə köməyə gəlir. Bəzən insanlar saatlarla, hətta günün yarısını virtual əlaqə yaratmaq, informasiya əldə etmək üçün "Facebook", "Whatsapp", "İnstagram"da aktiv olurlar.**

Bir sözlə, sosial şəbəkələrə maraq gündən-günə artır. Artıq günümüzü sosial şəbəkələrsiz təsəvvür edə bilmirik. Virtual məkan genişləndikcə sosial şəbəkələrin də sayı artır. Bu şəbəkələrdən həm gənc, həm də yaşlı nəslin nümayəndələri istifadə edirlər. İctimai rəyə təsir etmək gücündə olan sosial şəbəkələrdən, həmçinin müxtəlif məqsədlər, xüsusilə də siyasi, sosial və iqtisadi yönlü təbliğatın aparılması, informasiya ötürülməsi məqsədilə də geniş istifadə edilir.

Bəs sosial şəbəkələr insanların siyasi mədəniyyətinin inkişafına, siyasi aktivliyinə təsir edibmi?

Son illərdə aktiv facebook istifadəçisi olan **Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** "Yeni Müsavat"a bildirdi ki, hazırda yeni informasiya texnologiyalarının tətbiqi, internet məkanının sürətlə genişlənməsi, virtual aləmdə münasibətlərin formalaşması bütövlükdə bütün dünyada qlobal miqyasda istər fərdi, istər sosial həyata ciddi şəkildə təsir edir. Bu təsir getdikcə artmaqdadır. Bunun nə ilə bitəcəyi və nəticələnəcəyi də hələ axıra qədər məlum deyil. O cümlədən bu tendensiya Azərbaycanda da müşahidə olunur: "Faktiki olaraq, yeni tipli bir sivilizasiyanın formalaşmasının içindəyik. Bu da sosial şəbəkə dediyimiz virtual məkandır. Bunlar da qeyd olunan sivilizasiyanın elementləridir. Onu da deyim ki, bu prosesdən narahatlıq keçirənlər də var. Amma bu, obyektiv bir prosesdir və siyasətə, insanların yeni siyasi mədəniyyətinin, siyasi baxışlarının formalaşmasına ciddi şəkildə təsir edib. O cümlədən Azərbaycanda da bu, özünəməxsus miqyas alıb. Ölkədə xüsusən son illərdə ənənəvi informasiya məkanının, əsasən də televiziyaların ən azı siyasi çərçivədə məhdudlaşdırılması sosial şəbəkəni daha da populyar etmiş oldu. Sözün doğrusu, indi artıq evlərdə mətbəxlərdə də evdar qadınlardan tutmuş yaşlı adamlara qədər hər kəsin sosial şəbəkədən istifadə etdiyini, siyasi məlumatlar almaq üçün istifadə etməsini müşahidə edirik. Reallıq bundan ibarətdir ki, sosial şəbəkələr insanların həyatına tam daxil olub və bütün təbəqələr siyasi bilgiləri də buradan əldə edirlər. Bu tendensiya siyasi aktivliyə də təsirini göstərir".

**P.Hüseyn onu da dedi ki, dünya sanki sosial şəbəkələrdəki tvitlərlə, statuslarla idarə olunur:** "Bəzən bir tvit, məsələn, ABŞ prezidentinin, yaxud Türkiyə prezidentinin sosial şəbəkədə yazdığı bir cümlə dünya siyasətinə təsir edir.


Pənah Hüseyn

Hətta ictimai, siyasi təşkilatlar, dövlət qurumları belə öz fəaliyyətlərində sosial şəbəkələri nəzərə alırlar. Çünki bu prosesdən geri qalmaq geridə qalmaqdır. Mən özüm də son dövrlərdə əsasən facebook səhifəmi faktiki olaraq Azərbaycan Xalq Partiyasının facebbok səhifəsi, informasiya məkanı kimi qurmuşam".

❑ **E.SEYİDAĞA, "Yeni Müsavat"**

# Müxalifət bu yay tətilə çıxmayacaq

## Partiya sədri: "İstirahət əvəzinə 26 illik uğursuzluğun səbəbləri barədə düşünmək lazımdır"




**Milli Məclisin deputatları, məmurlar, müəllimlər yay aylarında tətilə çıxırlar. Yay mövsümündə siyasi səhnədə də aktivlik aşağı düşür. Lakin araşdırmamız nəticəsində bəlli oldu ki, deputatlardan və məmurlardan fərqli olaraq siyasi partiyaların rəhbərliyindəki şəxslər, partiyalar yay tətilinə çıxmayıblar və çıxmaq planları yoxdur.**

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** "Yeni Müsavat"a bildirdi ki, 2012-ci ildən indiyə qədər tətilə-istirahətə getməyib: "7 ildir xüsusi bir tətildə, istirahətdə olmamışam. Axırıncı dəfə 2012-ci ildə xanımımla birlikdə müalicədə olmuşam, onu da istirahət saymaq mümkündürsə. Lakin nəvələrimə söz vermişəm ki, yaxın günlərdə onları iki günlük Qəbələyə aparım. Yay istirahətim bundan ibarət olacaq".

**Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu bildirdi ki, istirahət barədə düşünmür və hazırda da Bakı şəhərindədir:** "Hesab edirəm ki, müxalif siyasilərin heç biri istirahəti haqq etməyib. Ümumilikdə düşünürəm ki, Azərbaycanda müxalifət lideri adına iddialı olan hər bir şəxs istirahət barədə düşünməməlidir. İstirahət əvəzinə 26 illik uğursuzluğun səbəbləri barəsində düşünmək daha yaxşı olardı. Milyonlarla soydaşımızın çətin iqtisadi durumu qarşısında istirahətə getmək müxalif siyasətçiyə bu gün hesab edirəm ki, yaraşmır. Mən şəxsən Bakı şəhərində sadə vətəndaşlarımızın əhatəsində, soydaşlarımın yanında olmaqla, onların dərdlərinə şərik çıxmaqla mənəvi baxımdan daha yaxşı istirahət etmiş oluram".

**AĞ Partiyanın sədri Tural Abbaslı da bildirdi ki, yayla əlaqədar AĞ Partiya olaraq tətilə çıxmayıblar və çıxmaq niyyətində deyillər:** "Biz hesab edirik ki, digər illərdən fərqli olaraq bu il yay ayları olmasına baxmayaraq, siyasi aktivlik xeyli yüksəkdir. Yeni partiyalar arasında müxtəlif formatda danışıqlar və ünsiyyətlər intensivləşib. Hazırda ən azı 2-3 siyasi blok fəaliyyət göstərir. AĞ Partiya olaraq biz də demək olar ki, hazırda gedən bütün siyasi proseslərin içindəyik və aparıcı qüvvələrdənik. Həmçinin partiyadaxili təşkilatlanma işlərimizi də davam etdiririk. Hələ nəzərə alsaq ki, bu il bələdiyyə seçkiləri keçiriləcək və növbədənkənar parlament seçkiləri söhbətləri də gündəmdədir və ciddi ehtimallar var, o zaman düşünürəm ki, tətilə çıxmaq üçün heç də uğurlu zaman deyil. İndiki məqamda ciddi, ardıcıl iş aparmaq və Azərbaycanın demokratikləşməsi, güclənməsi uğrunda fəaliyyət göstərmək zamanıdır. Kütləvi aksiyalara gəldikdə isə mən istisna etmirəm ki, yay aylarında müxalifət olaraq birgə mitinq keçirilsin. Hətta bununla bağlı bəzi təkliflər və fikirlər belə səslləndirilib. Bu məsələ həmçinin baş verəcək siyasi proseslərdən də asılı olacaq. Mitinqlər siyasi mübarizənin ən effektiv vasitələrindən biridir və kimsənin bu variantdan imtina etmək fikiri yoxdur, həmçinin də AĞ Partiya olaraq bizim".

ALDP sədri Fuad Əliyev də tətilə çıxmadıqlarını bildirdi.

**AMİP katibi Əli Orucov isə bildirdi ki, adətən yay fəslində ictimai-siyasi həyatda bir qədər durğunluq yaşanır:** "Bu, daha çox fəal təbəqənin, əhalinin böyük kəsiminin istirahətə üstünlük verməsi ilə bağlıdır. Ölkə gündəmində ciddi hadisələr və proseslər də yoxdur. Partiya olaraq yay aylarında hər hansı bir kütləvi aksiyalar nəzərdə tutmamışıq. Rayon təşkilatlarında fəallarla görüşlərimiz olur. İstirahət məsələsinə gəlincə isə, bildiyiniz kimi, bu, xeyli miqdarda maliyyə tələb edir. Azərbaycanda turizm çox bahadır. Xüsusən də yay aylarında. Cəmiyyətin aztəminatlı təbəqələrindən sayılan partiya funksionerlərinin isə istirahət mərkəzlərində dincəlməsi əlçatmazdır. İstirahətimiz ancaq 3-4 günlük rayonlarda qohum-əqrəbaya baş çəkməkdən o tərəfə keçmir".

**KXCP İdarə Heyətinin üzvü Xəzər Teyyublu isə dedi ki, isti aylar olsa belə, hələ istirahətə getməyiblər və bu barədə düşünmürlər:** "Partiyanın tədbirləri olur, həftəlik partiya toplantıları keçirilir, İdarə Heyətinin iclasları olur. Tətil məsələsi hələ ki gündəmdə deyil".

❑ **E.SEYİDAĞA, "Yeni Müsavat"**

# "Dayanıqlı inkişafa nail olunmasında hər zaman Azərbaycana dəstək verməyə hazırıq"

## BMT İnkişaf Proqramının Baş direktoru Azərbaycanda aparılan islahatları yüksək qiymətləndirib



**Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində səfərdə olan baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Baş direktoru Akim Stayner və onun müavini, BMTİP-in Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Spolyariç Eqqer ilə görüşüb.**

APA-nın xəbərinə görə, görüş zamanı Azərbaycan və BMT-nin İnkişaf Proqramı ilə ikitərəfli əməkdaşlığın genişləndirilməsi və birgə həyata keçirilən layihələrdə effektivliyin artırılması məqsədilə müzakirələr aparılıb.

Azərbaycanın BMT-nin İnkişaf Proqramı çərçivəsində əməkdaşlığının uğurla davam etdiyini vurğulayan baş nazirin müavini 1992-ci ildə BMT-yə üzv olduqdan sonra bu əməkdaşlıq çərçivəsində bir sıra mühüm sənədlərin imzalandığını, ölkəmizin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri qlobal təşəbbüsünə qoşulması ilə BMT ilə əməkdaşlıqda yeni səhifə açıldığını vurğulayıb.

Azərbaycanda son dövrlərdə bütün sahələrdə inkişafın dayanıqlılığının təmin edilməsi istiqamətində aparılan islahatlar barədə məlumat verən Əli Əhmədov aparılan islahatlarda BMTİP ilə birgə icra olunan layihələrin mühüm önəm kəsb etdiyini bildirib.

Eyni zamanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında da ön sıralarda olmağı planlaşdırdığı, bu məqsədlə ölkədə bütün strategiyalar və dövlət proqramlarının qlobal məqsədlərə uyğunlaşdırıldığı diqqətə çatdırılıb.

Bundan əlavə, baş nazirin müavini Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və 1 milyondan çox azərbaycanlının yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü və bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını bildirib. BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi qətnamələrin indiyədək yerinə yetirilmədiyi BMT rəsmilərinin diqqətinə çatdırılıb.

BMT İnkişaf Proqramının Baş direktoru Azərbaycan Respublikasında aparılan sahəvi islahatları və Azərbaycanın DİM-lərin həyata keçirilməsində göstərdiyi səyləri yüksək qiymətləndirib. Azərbaycanda DİM-lərdən irəli gələn öhdəliklərlə bağlı vəzifələrin kompleks əlaqələndirilməsi və icrası üçün Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasını, qısa müddət ərzində DİM-lərə inteqrasiya istiqamətində görülən işləri, habelə regionda və MDB məkanında ilk ölkə olaraq Azərbaycan tərəfindən ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda ikinci Könüllü Milli Hesabatın təqdim olunduğunu vurğulayaraq, bütün bu sadalananların ölkəmizin DİM-lərə nail olunmasında sərgilədiyi həssas yanaşmanın bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin hökumətlə çox səmərəli əməkdaşlıq qurduğunu və bu əməkdaşlığın digər region ölkələri üçün nümunə ola biləcəyini qeyd edən Miryana Spolyariç Eqqer dayanıqlı inkişafa nail olunması istiqamətində həyata keçirilən layihələrdə BMT-nin hər zaman Azərbaycana dəstək verməyə hazır olduğunu diqqətə çatdırıb.

YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019

# Tragikomik ayrılıqlar



Zamin HACI
zaminhaci@gmail.com

**"O biri dünyada görüşərik, orada sərhədlər yoxdur..."**
**(Georgi Daneliyanın "Pasport" filmindən, 1990-cı il)**
**"Fərman padşahındır, dağlar bizimdir"**
***(Dadaloğlu, 19-cu əsr)***

**Mən də bu Gürcüstanla sərhəddə Keşikçi dağında sərhədçilərimizin başına gələn əhvalata münasibət bildirim. Hazırda aktual məsələdir, hamı müzakirə edir, hətta tənbəllər də. Bildiyiniz kimi, orada 3-4 gün qabaq beş-altı sarsaq qonşu sərhədçilərimizə hücum edib, hətta deyəsən, silahı və patron darağını ələ keçiriblər, sonra qaytarıblar. Bir az da arada söyüşmə-zad olubdur. İndi bir qrup adam sərhədçini maymaqlıqda qınayır, deyirlər gərək o, atəş açıb sərhəd pozucularının anasını ağlar qoyardı. Başqa qrup isə əksinə, sərhədçini tərifləyir, soyuqqanlı olmağa, düşmən təxribatına uymamağa, iki qardaş dövlət arasında münaqişə salmamağa və sairəyə səsləyir. Mən problemə başqa yöndən yanaşardım.**

Ancaq bundan öncə işin içində yenə dini amilin olmasına diqqət verin. Tarix boyunca insanların din, Allah, kilsə, məscid və sairə məbəd yolunda axıtdığı qanlar yəqin dinsizlərin axıtdığı qanlardan milyon dekalitr çox olar, nəinki az. Planetin harasına baxsan orada məbəd üstündə, məbədlərin içində və ətrafında qırğın gedir. Bu da dinin necə zərərli, zəhərli ideologiya olmasının bir isbatıdır. Saakaşvili hökumətinin ən axmaq hərəkətlərindən biri, fikrimcə, Gürcüstanda dini amili gücləndirməsi, təpələrə xaç taxması, yeni bayraq çəkib üstünü xaçla doldurması idi. Kilsə bu gün Gürcüstanda ən mürtəce, insan azadlığına qarşı addımları ilə tanınan qurumdur. Skandinaviyada-filanda belə bayraqları yola vermək olur, Qafqaz kimi yerlərdə isə qaşınmayan yerdən qan çıxartmaqdır.

Qaldı sərhəd... Açığı, mən heç başa düşmürəm Gürcüstan və Azərbaycan kimi bir-birinə həm tarix, həm etnos, həm siyasi, həm iqtisadi və min cür başqa səbəbdən bağlı olan dövlətlərin arasında sərhəd nəyə lazımdır. Avropada, sivil dünyada belə sərhədsiz yerlər çoxalmaqdadır. Hərdən görürsən Niderland və Belçika arasında hansısa şəhərdən keçən sərhədin fotosunu yayıblar: kafenin bir masası başqa dövlətə düşür, bir masası başqasına. Oturub qəhvələrini içirlər, heç veclərinə deyil kimin ayağı hara girib. Bir dəfə xəbər çıxmışdı, Norveç Finlandiyaya (ya da tərsinə) öz ərazisindən bir parça bağışlamaq istəyirdi ki, onların da ən hündür dağı olsun. Ümumiyyətlə, 21-ci əsrdə, qloballaşma, süni intellekt, texnoloji inqilab dövründə torpağa hansısa xətt çəkib "buradan keçə bilməzsən" demək utandırıcı, ayıb şeydir. Özünə ov arealı cızmaq, harasa "piş" eləyib işarə vurmaqla ərazi mənimsəmək heyvanlara xasdır, biz isə şüurlu insanlarıq. Elementar bir misal çəkim: Kür çayı oradan axıb gəlir. Ondan da əvvəl Türkiyədən başlayır. İndi biz necə deyə bilərik Kür bizim çaydır? Bu, dağlara, dərələrə, dumanlara, yaylaqlara da aiddir. Təzəlikcə anam öz uşaqlığından danışırdı, nənəmgilin yaylağı Ermənistanda, Cermuk dağlarında olub. Anam orada mineral, isti sularda çimməyindən, meşələrdən, gözəl təbiətdən danışdı. Mən də internetdə Cermuk dağlarını axtarıb tapdım, videosuna baxdım. Araya nifaq salanları nifrətlə yad elədim, çünki sanarsan cənnətin bir parçasına baxırdım.

1918-ci ildə biz gürcülər və ermənilərlə birgə əslində Qafqaz Respublikası yaratmışdıq. Öncə belə birlik nəzərdə tutulurdu və ən təbiisi də o olacaqdı. Həmin birliyin, Qafqaz dövlətinin ərazisində bugünkü müharibələr, mübahisələr də olmayacaqdı, hətta o gücün qarşısında şimal və cənubdan biz qafqazlıları parçalamaq istəyənlər susacaq, çəkinəcəkdi. Amma ilk gürcülər müstəqillik elan eləyib birlikdən çıxdılar, ardıyca bizim ağsaqqallar da istiqlal bəyannaməsi imzaladı. Bir növ, biz buna məcbur olduq. Hesab edirəm, bu gün sərhəddə mənasız yerə qan axıtmaq istəməyən müdrik əsgərimizin də damarında o cümhuriyyət liderlərinin qanı axır. Qan tökməyə nə var, hünərin var qanı dayandır. Misal üçün, mən təzəlikcə bilmişəm ki, venoz qanaxmanı kəsməklə arterial qanaxmanı kəsmək metodları bir-birindən fərqlənirmiş. Birində yaranın yuxarısından, o birində aşağısından sıxmaq lazım imiş (açığı, indi heç xatırlamıram hansı necə olmalı idi). Yoxsa baxırsan sadə iş kimi gəlir: tənzifi bas, sarı, jqutla sıx və sairə. Sadə deyil.

Əlbəttə, indiki siyasi-iqtisadi, geopolitik şərtlərdə Gürcüstanla aramızda sərhədi ümumiyyətlə qaldırmağın real olmadığını, fentezi janrında göründüyünü anlayıram. Hərçənd, haçansa belə olacaq, yüz faiz. Ancaq ona qədər heç olmazsa həmin monastr (çaşıb "monstr" yazmışdım) zonasını neytral ərazi elan edə bilmərikmi? Qoy ora bütün insanlar sərbəst gedib-gəlsinlər. Axı necə olur, ticarət lazım gələndə azad zonalar, rüsumsuz ərazilər, nə bilim, duty-free yaradırıq, dağlarda, kilsələrdə bu alınmır?




# Bakının ildırımsürətli savaş planı - "Ermənistan, faktiki, müttəfiqsiz qalıb..."

## Türkiyədəki azərbaycanlı politoloqdan sensasion təklif; Ankara-Moskva yaxınlaşması Bakıya Qarabağ fürsəti yarada bilərmi?

**Türkiyə ilə Rusiya arasında hərbi əməkdaşlıq Qərbdə güclü qıcıq və narahatlıq doğurmasına rəğmən, artıq yeni mərhələsinə adlayıb. Ankara ilə Vaşinqton arasında S-400 böhranı pik həddə çatdığı vaxtda isə Rusiyadan Türkiyəyə yeni təklif gəlib. Məlumatlara görə, Moskva Ankaraya analoqu olmayan yeni nəsil döyüş təyyarələri - Su-57-lər sata biləcəyini açıqlayıb. Rusiya baş nazirinin müavini Yuri Borisov bu xüsusda deyib ki, təyyarələrin satışını nəzərdə tutan müqavilə üçün görüşlərin keçirilməsi istisna deyil. "Niyə mümkün olmasın? Artıq əlimizdə bunun mümkün olduğuna dair bir nümunə də var" - Borisov bildirib.**

Şimal qonşumuz, Qarabağ məsələsində vasitəçi olan və işğalçı Ermənistanın 1 nömrəli müttəfiqi sayılan Rusiya ilə 1 nömrəli müttəfiqimiz Türkiyənin daha da yaxınlaşması, sözsüz ki, Azərbaycanda da diqqətlə izlənilir. Bizim üçün ən önəmlisi təbii ki, bu prosesin Qarabağ konfliktinin həll perspektivinə hansısa formada təsiri ilə bağlıdır.

*****

"Böyük dövlətlərin maraqları, dünya gündəmindəki digər mühüm mövzular, əfsus ki, Dağlıq Qarabağ məsələsində status-kvonun saxlanmasına yardım edir. Dünyada baş verən böyük dəyişikliklərə baxmayaraq, bizim regionda heç nə dəyişmir". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə Axar.az-ın rus versiyasına açıqlamasında Türkiyədə yaşayan tanınmış azərbaycanlı **politoloq Toğrul İsmayıl** konflikt ətrafında son durumu şərh edərkən deyib.

**Onun sözlərinə görə, bu gün Azərbaycanın genişmiqyaslı hərbi əməliyyatlara başlamalı olmasını demək tez olsa da, zamanla bu, zərurətə çevrilə bilər:** "Hələlik problemin dinc həll variantı prioritet olmalıdır. Bakı Dağlıq Qarabağ ətrafındakı bütün rayonların tam boşaldılmasını tələb eləməlidir. Bakı bundan ötrü hərbi yox, antiteror xarakterli addıma gedə bilər - hansı addıma ki, beynəlxalq prinsiplərə əsasən, istənilən dövlətin hüququ var. Amma bundan ötrü ciddi hazırlıq lazımdır. Düşmən qüvvələr bu yerlərdə çoxdan oturuşub və o səbəbə proses asan olmayacaq".

**Ekspertin fikrincə, 2016-cı ilin aprel hadisələri göstərib ki, Azərbaycan çox şeyə nail ola bilər.** "Hərçənd başlanğıcda müəyyən qüvvələrini itirə bilər. Bu, həmişə olur", - deyə politoloq vurğulayıb.

Bəs müharibə və ya antiteror əməliyyatı zamanı Türkiyə Azərbaycana kömək edəcəkmi?

**Toğrul İsmayıl hesab edir ki, bu, Azərbaycanın öz hərəkətləri üçün nə dərəcədə beynəlxalq hüquqi əsas hazırlamasından asılı olacaq:** "Təbii ki, Bakı Rusiya hökumətini inandırmalıdır ki, o, yalnız öz ərazilərini qaytarır. Hər halda, Moskva bu proseslərə mane olmağa çalışacaq. Əgər sülh danışıqları nəticə verməsə, aydındır ki, hərbi əməliyyatlar gerçək olacaq".

**Politoloq daha sonra deyib:** "Azərbaycan ildırım sürəti ilə hərəkət etməlidir. Ona görə ki, əgər əməliyyatlar uzansa, o zaman Rusiya başqa cür hərəkət edəcək. Hamımız bilirik ki, Rusiya Ermənistanın müttəfiqidir. Hərçənd aydındır ki, ermənilər ruslara heç nə ilə kömək edə bilməzlər və müttəfiqlik də sırf Ermənistanın Cənubi Qafqazdakı coğrafi mövqeyinə görədir - harada ki, rus bazası var. Bu səbəbdən Moskva onu itirmək istəməz. Biz görürük ki, Ermənistan nə iqtisadi, nə də siyasi anlamda sabitdir. O, özünün aqressiv siyasəti ucbatından onsuz da dalana girib. Demək olar, İran istisna olmaqla, Ermənistan, faktiki, müttəfiqsiz qalıb".

**Azərbaycanlı analitikə görə, Bakının antiterror əməliyyatı aparması çox vacibdir.** "Yəni bu, o deməkdir ki, Bakı günahsız, silahsız əhalinin yaşadığı ərazilərdə müharibə aparmır, yalnız onun torpaqlarını ələ keçirənlərlə - işğalçı və terrorçularla döyüşür. Əgər Azərbaycan bu prosesə başlasa, onu yalnız antiterror əməliyyatı kimi təqdim etməlidir. Bu, Azərbaycanın nə istədiyini hamının başa düşməsinə imkan verəcək. Qarabağ Azərbaycan ərazisidir və dünya birliyi də bunu belə qəbul edir. Azərbaycanın onun torpaqlarını könüllü şəkildə tərk eləmək istəməyən terrorçu və işğalçılardan, hər cür qruplaşmalardan öz ərazilərini təmizləmək hüququ var", - deyə, sonda ekspert əlavə edib.

*****

Bu hüququn gerçəkləşməsi yönündə Bakı habelə Rusiya ilə Türkiyənin görünməmiş şəkildə yaxınlaşmasından yararlanmağı bacarmalıdır. Çünki Bakının əsaslandırılmış və beynəlxalq hüquqa söykənən antiterror əməliyyatına görə Moskva çətin ki, əlaqələri yüksəlişdə olduğu Türkiyə ilə münasibətləri geri çevirsin, Ankara ilə çoxmilyardlıq iqtisadi-energetik layihələri (Akkuyu AES, "Türk axını" və s.) və bahalı silah anlaşmalarını dondursun. Bu istisnadır. Ehtimal olunan budur ki, onlar Bakının Qarabağ ətrafında antiterror əməliyyatı zamanı da dil tapacaqlar.

Qardaş ölkə isə bu əməliyyat zamanı yüzdə-yüz Bakının yanında olacaq. Bu, birbaşa hərbi kömək şəklində deyil, - buna heç lüzum da yoxdur, - başqa formada ola bilər. Məsələn, Naxçıvanda bircə Türkiyə bazasının olması yetərlidir ki, Ermənilər həmin istiqamətdə təxribata əl atmasınlar və Azərbaycan Ordusu rahat şəkildə materik hissədə işğalçılarla haqq-hesabı çürütsün.

Üstəgəl, Azərbaycan bu əməliyyatla Moskvanın regional maraqlarına toxunacaq addım atmağa, onun forpostu Ermənistana hücum etməyə hazırlaşmır. Nəhayət, belə bir nüans da nəzərə alınmalıdır: tarix göstərir ki, Rusiya ilə Türkiyənin yaxınlaşması çətin ki, uzunömürlü ola. Çünki bu iki dövlətin regional maraqları zaman-zaman toqquşub, indi də əslində toqquşur. İmperiya maraqları isə Moskvanı bir qayda olaraq, öz dost-müttəfiqlərini siyasi bazarlığa çıxarmağa mane olmur.

**Odur ki, bir az da tələsməliyik...**

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019

**23 iyun İstanbul təkrar bələdiyyə seçkisindən sonra Türkiyə daxili siyasətinin əsas gündəmi baş nazirin keçmiş müavini Əli Babacanın AKP-dən istefa verməsidir. 2001-ci ildə AKP-nin ilk qurucularından olan Əli Babacan son illərdə hökumətdə təmsil olunmayıb. İstanbul seçkilərindən bir qədər əvvəl isə mediada Babacanın AKP-dən istefa verib yeni partiya yaradacağı ilə bağlı xəbərlər dolaşmağa başlayıb.**

# Babacan Ərdoğana ciddi rəqib ola bilər, bir şərtlə...

## Ekspertlərə görə, onun Türkiyə siyasətində uğuru AKP hökumətinin qarşıdakı illərdə göstərdiyi fəaliyyətlə bağlı olacaq





İyulun 8-də isə Əli Babacan AKP-dən istefa verdiyini bəyan edib və yazılı açıqlama yayıb. Açıqlamada hazırkı şərtlərdə Türkiyə üçün yeni bir gələcək baxışına ehtiyac olduğunu qeyd edən Babacan Türkiyənin bu günü və gələcəyi üçün yeni bir fəaliyyət başlatmanın qaçılmaz hala gəldiyini bildirib. Və bu istiqamətdə yeni insanların olmasından məmnunluğunu qeyd edib. Və əlavə edib ki, bu mərhələdən sonra AKP-də üzv olaraq qalması mümkün olmadığı üçün istefa ərizəsini rəhbərliyə təqdim edib.

**Açıqlamada açıq şəkildə yeni partiya yaradılmasına da işarə edilib. Sitat:** "Mən və bir çox dostum belə bir fəaliyyət üçün böyük və tarixi bir məsuliyyət hiss edir. Bu prosesdə eyni əxlaqi və ictimai məsuliyyəti hiss edən çox sayda insanla tanış olmaq bizim üçün çox sevindirici oldu. İnanıram ki, qarşı-qarşıya olduğumuz problemlərin həlli təmsil gücü yüksək və geniş bir komanda ilə mümkün olacaq. Bərabər çalışmaq və ortaq hədəf müəyyən etməliyik. Fəaliyyətimizin müstəqil və azad bir şəkildə aparılması böyük önəm daşıyır. Hər mövzuda yeni səhifələrlə işə başlamaq lazımdır".

Mətbuatın yazdığına görə, Əli Babacan 31 mart bələdiyyə seçkilərindən dərhal sonra aprelin 18-də Türkiyə Patent və Marka Qurumuna müraciət edərək Huzur adlı partiya adını qeydiyyata aldırmaq istəyib. Mediadakı iddialara görə, Əli Babacan bu ilin payızında - sentyabrdan sonra yeni partiyasını elan edə bilər. Adı Babacanla birlikdə hallanan keçmiş prezident Abdulla Gül və keçmiş baş nazir Əhməd Davudoğlunun indiki mərhələdə yeni partiyaya qatılmayacağı, kənardan dəstək verəcəyi bildirilir. Hətta bəzi yazarlar Babacan və Davudoğlunun ayrı-ayrı partiyalar yaradacağı, yalnız gələcəkdə ittifaq qura biləcəklərini yazıb.

Ancaq mətbuatın iddiasına görə, hazırda AKP-də təmsil olunan, eləcə də parlamentdə fəaliyyət göstərən bir sıra şəxslər, həmçinin keçmişdə AKP-də yüksək postlarda olan, ancaq indi kənarda qalmış bir sıra nüfuzlu şəxslər də Babacanın yeni partiyasına qatıla bilər. İndi bir çoxları Babacanın quracağı partiyanın Türkiyə siyasətində tuta biləcəyi yer haqqında düşünür. Söhbət yeni partiyanın alacağı səslərdən gedir. Məsələ ondadır ki, iki il əvvəl MHP-dən ayrılan Meral Akşenerin qurduğu İyi Partiya ötən il seçkilərində "Millət İttiafaqı" koalisiyasına daxil olaraq parlamentə düşməyi bacardı. Bəs Babacanın partiyası bu qədər uğurlu ola biləcəkmi? AKP-dən ayrılan və özü ilə müəyyən bir siyasətçi ordusunu aparmağa iddialı olan Əli Babacanın yeni partiyası AKP-nin elektoratından nə qədər səs qopara bilər?

Türkiyədə fəaliyyət göstərən ANAR Sosial Araşdırma şirkətinin rəhbəri İbrahim Uslu "İndependent" qəzetinə verdiyi açıqlamada Babacanın yeni partiyasının AKP-dən ciddi sayıla biləcək səviyyədə səs qopara biləcəyini düşündüyünü deyib. Onun fikrincə, yeni partiya əsasən sağ cinahdan 12 faizə qədər səs ala biləcək. Söhbət əsasən AKP-nin elektoratı hesab olunan mühafizəkar qrupdan gedir. İ.Usluya görə, əsasən AKP seçicisi olan dindar-mühafizəkar, təhsilli, orta və yüksək gəlirli qrup Babacanın partiyasına dəstək verə bilər. Bu isə təxminən 10-12 faiz səs deməkdir. Eyni zamanda bu qrafaya uyğun gələn və öz partiyalarından razı olmayan CHP, MHP və İyi Partiyadan olan seçicilər də Babacana dəstək verə bilər. Ekspertə görə, əgər Babacan uğurlu kadr seçimi edərsə, daha əvvəl könülsüz olaraq HDP-yə səs verən dindar-mühafizəkar kürd seçicilərin bir qismi də Babacanı seçə bilər. Çünki son illərdə daha sərt siyasi xətt tutan AKP mühafizəkar kürd qrupunun səsini itirib.

"A&G" Araşdırma Şirkətinin müdiri Adil Gür isə qəzetə açıqlamasında deyib ki, AKP seçicilərinin böyük hissəsi AKP-yə deyil, məhz partiya lideri Rəcəb Tayyib Ərdoğana səs verir. Eyni zamanda Adil Gürə görə, Babacanın partiyasının gücü yeni partiya qurulub qeydiyyata alındıqdan sonra bilinəcək. Bu səbəbdən də hazırkı şərtlərdə AKP seçicilərinin məhz Ərdoğana görə bu partiyaya səs verdiyini xatırladan Gürün fikrincə, Babacanın partiyasının uğuru iqtisadi vəziyyətdən asılı olacaq. Çünki AKP komandasında uğurlu iqtisadi sahədə uğur qazanmış və hazırda da uğurlu bir iqtisadiyyatçı kimi yadda qalan Babacanın siyasi karyerası hazırkı AKP iqtidarının qarşıdakı dövrdə iqtisadi sahədə uğur və ya uğursuzluğuna bağlı olacaq.

Ancaq Adil Gür Babacan və Gülün birgə layihəsinin AKP-ni ikiyə böləcəyinə inanmır. Yeni partiyanın AKP-dən ciddi sayda səs qoparacağını isə təxmin edir. Xüsusən də əgər qarşıdakı illərdə AKP-nin iqtisadi siyasəti uğursuz olarsa, o zaman Babacan və partiyasının şansı daha da arta bilər. Eyni zamanda Gür yeni partiyanın lider ətrafında yaranan partiya olmayacağı və bu səbəbdən də yalnız AKP deyil, digər partiyalardan da narazı elektoratı cəlb edə biləcəyini ehtimal edir.

Beləliklə, fövqəladə hadisə yaşanmasa, yaxın dövrdə Türkiyə siyasətinin yeni sağ-mühafizəkar partiyası ortaya çıxa bilər. Babacanın ikinci bir Ərdoğan olması ehtimalı az olsa da, istənilən halda ekspertlərin bugünkü dəyərləndirmələri belə AKP-nin, ümumilikdə Türkiyə siyasətinin ciddi bir dəyişiklik prosesində olduğunu söyləməyə əsas verir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# İndidən S-500-lərə köklənmək tez deyilmi?..



**Hüseynbala SƏLİMOV**

**Ötən həftənin sonunda KİV-lər xəbərlədi ki, S-400 kompleksinin Türkiyəyə daşınmasının birinci mərhələsi başa çatıb - qardaş ölkəyə artıq müvafiq texnikanın ilk komponentləri yetişib.**

Beləliklə, bəzi politoloqların guya ABŞ-ın təzyiqi altında Türkiyənin Rusiya ilə hərbi sövdələşmədən vaz keçəcəyi haqqındakı proqnozları öz təsdiqini tapmadı.

Amma başqa proqnozlar da vardı. Məsələn, deyilirdi ki, Rusiya texnikası Türkiyəyə gətiriləcək, amma qutulardan çıxarılmayacaq və ya daha kəskin mülahizələr səslənirdi: Türkiyə Rusiya ilə sazişdən imtina etməyəcək və ABŞ da ona qarşı sanksiyalar tətbiq edəcək.

Hələlik Rusiya mənbələri bildirir ki, üç mərhələ olacaq və bu müddət ərzində Ankara onun üçün nəzərdə tutulmuş texnikanı bütünlüklə alacaq.

Amma siyasi təhlilçiləri indi başqa sual qayğılandırır: "Böyük iyirmilər"in Yaponiyada keçirilən son sammitində Türkiyə prezidenti öz amerikalı həmkarını inandıra bildi, yoxsa ki, sanksiyalar mütləq olacaq?

Xatırladaq ki, prezident R.T.Ərdoğanla görüşdən sonra D.Tramp da etiraf etmişdi ki, vaxtilə ölkəsi Ankaraya öz "Patriot"larını satmamaqla ədalətsiz davranıb. Bunun ardınca Türkiyə prezidentinin çox optimist bəyanatları səsləndi ki, bəs ölkəsinə qarşı heç bir sanksiya olmayacaqdır.

Amma onu da yada salaq ki, "böyük iyirmilər"in sammiti ərəfəsində ABŞ Senatı Türkiyəyə 100 ədəd F-35 təyyarələrinin verilməsi haqqındakı qərarın qüvvəsini dayandırıb. Odur ki, tərəddüdlər və bir az da narahatlıq hələ də qalır: hətta prezident Tramp mövqeyini dəyişibsə, o Senatı da buna vadar edə biləcəkmi? Nəzərə alsaq ki, ABŞ-da Konqress və prezident arasındakı münasibətlər heç də hamar deyil, bunun elə də asan olmayacağı qənaətinə gəlmiş olaraq.

Amma hələlik ABŞ təmsilçiləri Rusiya kompleksilə bağlı rəsmi yozumlar verməyə tələsmirlər - okeanın arxasında müəmmalı sükut hökm sürür.

Yalnız dövlət katibi M.Pompeo öz müsahibəsində Tütrkiyəyə qarşı düşmən dövlətlər üçün nəzərdə tutulan sanksiyaların tətbiq olunmasının vacib olduğunu bildirib. Amma bu fikri Pompeo öz adından səsləndirib.

Daim operativliyilə seçilən ABŞ prezidenti isə susur və sosial şəbəkələrdə açıqlama verməyə tələsmir. Düşünürük ki, bu həftə ərzində şərhlər və bəyanatlar mütləq olacaq, çünki mövzu həm maraqlıdır, həm də aktual və güman ki, Ağ Evdə növbəti mətbuat konfransında bu barədə də soruşulacaq.

Məsələ əlbəttə ki, əzəldən çox sadələşdirilibdir. Birincisi, ABŞ Hindistanı da sanksiyalarla hədələyirdi, halbuki Dehli nə NATO-nun, nə də ABŞ-ın üzvü və ya müttəfiqi deyil.

Bundan başqa yaxşı məlumdur ki, vaxtilə Yunanıstan dəfələrlə Rusiyadan müxtəlif silahlar almışdı. Bu azmış ki, geosiyasi ssenarilərin həvəskarları yəqin xatırlayırlar ki, bu NATO ölkəsinin adı Rusiya ilə ən müxtəlif alyanslarda hallanırdı - vaxtilə geopolitiklər Rusiyanın ətrafında müxtəlif konfiqurasiyalar, çoxbucaqlılar qurmağı sevirdilər ki, bunun da bir bucağı daim Yunanıstan olurdu.

Bəs onda problem nədədir? Hərbi-sənaye kompleksi ABŞ-da böyük imperiyadır və bəzən ölkənin siyasəti onun maraqlarına tabe etdirilir və o, da öz maraqlarını bu və digər dərəcədə ölkə siyasətilə uzlaşdırmağa çalışır - necə deyər, əl əli yuyur, əl də üzü; "Patriot" satılmayıbsa, deməli S-400-lərin də bazarı bağlanmalıdır...

Ümid edirik ki, məsələnin siyasi tərəfi yoluna qoyulacaq və Trampın əzəldən məsələyə daha loyal yanaşması və hətta məsələni araşdırmaqçün birgə komissiyanın yaradılmasına razı olması ümidlərimizi artırır.

Bizi bir qədər fərqli məsələ düşündürür. Türkiyənin hava hücumundan müdafiə sistemi Moskva üçün qismən də olsa, açıldı. Aydındır ki, yeni sistemin qurulmasını, hətta ilk vaxtlarda istismarını və türkiyəli kadrların hazırlanmasını rusiyalı mütəxəssislər həyata keçirəcək. Bəs bu onun müdafiə sisteminin etibarlılığını və möhkəmliyini azaltmırmı? Əlbəttə ki, nəticələrlə tələsmək lazım deyil. Hazırda ən aktual məsələ ABŞ-ın bu işə yekun reaksiyasıdır - bu, mülayim və loyal olsa, onda hesab etmək mümkün olar ki, təhlükə sovuşub. Belə deyim var ki, sükut razılıqdır və güman ki, Türkiyəyə komplekslərin çatdırılmasını eşidən jurnalistlər məsələ ilə bağlı rəsmilərin mövqeyini öyrənməyə çalışıblar.

Amma biz bu sətirləri yazarkən bunun nəticələri müşahidə olunmadı, güman ki, "Böyük 20-lər"in sammitində səslənən bəyanatları eşidəndən sonra jurnalistlər də qərara gəlib ki, okeanın o biri tayında "ürək tutmaları", "şok"lar daha yaşanmayacaq və əlbəttə, bu bizi də sevindirir.

Burada bir məqamı da xüsusilə qeyd etmək lazım gəlir. Ola bilsin, S-400-lərlə bağlı planının uğurla həyata keçməsindən sevincək olan Türkiyə prezidenti Rusiyadan S-500-lərin də alınacağını dedi. Fəqət, bizə elə gəlir ki, bu bəyanata ehtiyac yox idi, çünki mümkündür ki, ABŞ da artıq özü üçün müəyyən nəticələr çıxarıb və ola bilsin, prezident D.Tramp kimi digərləri də razılaşıb ki, Vaşinqton vaxtilə "Patriot"ları öz müttəfiqinə satmamaqla həqiqətən də ədalətsiz davranıb...

YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019

# "Sarı zolaq" qadağasına 2 gün qaldı - 40 manat cəriməsi var

## Sarı rəngli və xüsusi işarəli avtomobil zolaqları kameralar vasitəsilə tam nəzarətə götürülüb



**Bakıda keçiriləcək XV Avropa Yay Olimpiya Gənclər Festivalı ilə əlaqədar müəyyən edilən marşrut üzrə əsas yol şəbəkəsində "Sarı zolaq" tətbiq ediləcək. Festivalın keçirilməsi ilə əlaqədar olaraq iyulun 20-dən 28-dək paytaxtın küçə və prospektlərində hərəkətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub. Əsasən "Sarı zolaq" qadağası həmin günlərdə qüvvədə olacaq. Bu zolaqlara icazəsiz daxil olan nəqliyyat vasitələri 40 manat məbləğində cərimə edilir. Tədbir günlərində paytaxt yollarında, küçələrdə çəkilən "Sarı zolaq"larda avtomobillərin hərəkəti qanunvericiliklə müəyyən olunmuş inzibati xəta tərkibi yaradır. Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsi (DYP) bununla bağlı sürücülərə müraciət edib. İdarədən "Yeni Müsavat"a verilən məlumata görə, festivalın keçirildiyi müddətdə yol polisi gücləndirilmiş iş rejimində çalışacaq, yarışların təşkil olunduğu ərazilərdə nəzarət artırılacaq.**

Tədbirlərin rahat, təhlükəsiz keçirilməsi məqsədilə avtomobil yollarında sarı zolaqların ayrılması və onların xüsusi işarələrlə rənglənməsi paytaxtın inzibati ərazisinə düşən bəzi küçə və prospektləri əhatə edir ki, bunu avtomobil sahibləri və sürücülər nəzərə almalıdır. Ötən dövrlərdə keçirilmiş idman tədbirlərində avtomobillərin hərəkətində sarı rəngli zolaqların tətbiq edilməsinin müsbət nəticələrini nəzərə alaraq, diqqətə çatdırırıq ki, sürücülər festival iştirakçılarının tədbir yerləri istiqamətində bu zolaqlar üzrə təhlükəsiz hərəkəti üçün şərait yaratmalıdırlar.

Xatırladaq ki, sarı zolaqlar üzrə digər avtomobillərin hərəkət etməsi avtomobil sahibləri və sürücülərin inzibati məsuliyyətə cəlb edilməsinə hüquqi zəmin yarada bilər. Ona görə də sürücülərə tövsiyə olunur ki, bu zolaqlar üzrə hərəkət etməsinlər. Belə ki, paytaxtın "Ziya Bünyadov", "Q.Qarayev", "Neftçilər", "Atatürk", "H.Ələsgərova", "Azadlıq", "Z.Əliyeva, "Tiblisi, "Moskva", "Ü.Hacıbəyov", R.İsmaylov və s. küçə və prospektlərində çəkilmiş sarı rəngli və xüsusi işarəli avtomobil zolaqları kameralar vasitəsilə tam nəzarətə götürülüb. Sürücü və avtomobil sahiblərinə tədbirin əhəmiyyətini nəzərə alaraq, yollarda süni tıxac və sıxlığın yaranmaması üçün ictimai nəqliyyat vasitələrindən istifadəyə üstünlük vermələri tövsiyə olunur.

**❑ E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**



Qoşqar Təhməzli

# Azərbaycanda heyvan xəstəliklərindən azad zona yaradılır

**"Xəstəliklərin monitorinqi, o cümlədən baytarlıq diaqnostikası sahəsində milli potensialın gücləndirilməsi layihəsi Azərbaycan üçün və bilavasitə qida təhlükəsizliyi sahəsində çox önəm daşıyan mövzudur".**

APA xəbər verir ki, bunu Azərbaycanda heyvan xəstəliklərinə nəzarətin təkmilləşdirilməsi məqsədilə milli potensialın gücləndirilməsi sahəsində start verilən yeni layihənin təqdimat mərasimində Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli bildirib.

Q. Təhməzli bildirib ki, AQTA beynəlxalq təcrübələrə əsaslanan heyvanların identifikasiyası və qeydiyyatı sisteminin yaradılması, xəstəliklərin monitorinqinin aparılması, ölkədə müasir tələblərə cavab verən heyvan kəsim məntəqələrinin açılması istiqamətində mühüm addımlar atır: "AQTA heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi məqsədilə respublika üzrə müasir kəsim məntəqələrinin təşkil olunması istiqamətində 54 müraciətə baxıb və zəruri tədbirlər görülüb. Fəaliyyətə başladığımız dövrdən 8 ət kəsim məntəqəsi fəaliyyətə başlayıb. Hazırda bir yeni heyvan kəsim məntəqəsi üzərində işlər gedir".

AQTA sədri qeyd edib ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının tələbləri nəzərə alınmaqla ölkədə heyvan xəstəliklərinin azaldılması və heyvan mənşəli məhsulların ixracının asanlaşdırılması məqsədilə heyvan xəstəliklərindən azad zonanın yaradılması istiqamətində tədbirlər görülüb: "Bildiyiniz kimi, beynəlxalq ekspertlərin, yerli mütəxəssislərin, beynəlxalq təşkilatların birgə gəldiyi ümumi rəyə əsasən xəstəlikdən azad zona kimi pilot layihənin Abşeron yarımadasının götürülməsi məqsədəuyğun sayılıb. Müvafiq işlərimiz gedir, Abşeron yarımadasında heyvan xəstəliklərindən azad zonanın yaradılması ilə bağlı tədbirlər haqqında təkliflələri hazırlayıb aidiyyəti üzrə təqdim etmişik".

# Məzuniyyət depressiyası: normal istirahət üçün nə etməli...

## Psixoloq: "Məzuniyyətə çıxmaq, hər şeyi arxada qoyub, yeni bir məkanda özünü yeniləmək deməkdir"



**Adətən yay aylarında özəl və dövlət müəssisələrində çalışanlar əmək məzuniyyəti götürürlər. Əmək məzuniyyəti - işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi, müddəti bu məcəllədə nəzərdə tutulandan az olmayan istirahət vaxtıdır. Əmək məzuniyyətinin müddəti təqvim günü ilə hesablanır.**

Əmək məzuniyyəti müvafiq peşə (vəzifə) üzrə əmək funksiyasını yerinə yetirən işçilərə verilən illik əsas məzuniyyətdən və istehsalın, əməyin xarakterinə və əmək stajına görə, habelə uşaqlı qadınlara verilən əlavə məzuniyyətdən ibarət olub, istər birlikdə, istərsə də ayrılıqda verilə bilər.

Əmək məzuniyyəti hər il müvafiq iş ili üçün verilir. İş ili işçinin işə götürüldüyü gündən başlanır və növbəti ilin həmin günü başa çatır. Əgər işçinin iş ili onun əmək məzuniyyətinə çıxmaq üçün müraciət etdiyi vaxtda başlanmayıbsa, onda ona əmək məzuniyyəti yalnız iş ili başlanandan sonra verilə bilər. Bir iş ilinə görə yalnız bir əmək məzuniyyəti verilə bilər. Təqvim ili ərzində işçinin iki iş ilinə görə məzuniyyət hüququ olduqda o, həmin təqvim ilində hər iki iş ilinə görə məzuniyyətdən birlikdə və ya ayrı-ayrılıqda istifadə edə bilər. İşçilərə ödənişli əsas məzuniyyət 21 təqvim günündən az olmayaraq verilməlidir.

Lakin məzuniyyətlə bağlı fərqli fikirdə olanlar da var. Bəzi şəxslər hesab edirlər ki, məzuniyyət insanda depressiya yaradır və geri döndükdən sonra işə adaptasiya prosesi boyunca insan psixoloji baxımdan sarsıntılar alır. İsrailin sabiq prezidenti Şimon Peresinin məzuniyyətlə bağlı məşhur ifadəsi də var. Belə ki, Peres bildirib ki, insanlar məzuniyyətə gedir - bu çox böyük vaxt itkisidir:

**"90 yaşım var, ancaq heç vaxt məzuniyyətdə olmamışam. Mənə deyirlər ki, "Başın xarabdı? Bəs necə istirahət edirsən?" Mən isə işləməyə üstünlük verirəm. Bundan zövq alıram. Bədbin olmayın - bu da vaxt itkisidir".**

**Psixoloq Fərqanə Mehmanqızı** "Yeni Müsavat" bildirib ki, məzuniyyətdən depressiyaya düşmə halı individualdır:

"Bu isə nümunə sayılmır. Ancaq ümumi götürəndə insan beyni daha çox davamiyyətli olan haldan depressiyaya düşür. Ruhu yoran hal insanı depressiyaya salır. İlk növbədə baxmaq lazımdır ki, biz istirahət deyəndə nə başa düşürük. Biz istirahət sözünü özümüz üçün aydınlaşdırmalıyıq ki, hansı halda dincəlirik. Ruhun qidası 5 duyğu orqanından gəlir. Toxunuş, eşitmə, görmə, danışmaq və qoxu. Bu 5 duyğu orqanı gözəlliklə dolu olarsa, ruhumuz da həmişə gözəlliklə dolu olacaq. Nəticədə insan depressiyaya düşməyəcək. Məzuniyyətə çıxıb, evdə divanın üzərində bütün günü yatanda təbii ki, depressiya halı yaranacaq. İnsanlar təkcə divanın üstündə yatmaqla keçinmirlər. Eyni zamanda bu anda sosial şəbəkələrə daxil olub, digər şəxslərin tətillərindən fotolar da görürlər. Sosial şəbəkə də belədir ki, hər kəs orada pozitiv anını paylaşır. Adama elə gəlir ki, sanki hər kəs xoşbəxtdir. Əslində bu məqam baxan şəxsi depressiyaya salır. Çalışmaq lazımdır ki, məzuniyyətə çıxan zaman gündən tamamilə istifadə edib, ruhumuzu doyuraq. Məzuniyyətə çıxırsansa və fikrin problemlərdə, işdə qalırsa, o zaman sən dincələ bilməzsən. Bu, məzuniyyət sayılmır. Məzuniyyətə çıxmaq, hər şeyi arxada qoyub, yeni bir məkanda özünü yeniləmək deməkdir. Əgər biz ruhumuzu, beynimizi yeniləsək, o zaman həmin yenilik müsbət enerji ilə dolu formada işə başlamağımıza şərait yaradar".

**Psixoloq söyləyib ki, uzunmüddətli məzuniyyət insanı psixoloji olaraq yorur:**

"Çünki insanın xisləti işləməkdir. İnsanın beyni nəyisə yaratmalıdır. Görürük ki, kimsə işgüzar olmadığı zaman ətraf ona mənfi rəy verir. Çünki insan beyni digər beyinlərdən də yaratmağı, yenilənməyi tələb edir. Biz həmişə öz üzərimizdə işləməyin tərəfdarı olmuşuq. Biz dedikdə beyinləri nəzərdə tuturam. Beyinlər yenilənməyin, yeniləməyin tərəfindədir. Bunu 4 dünyəvi dinlərin hamısında da görə bilərik. İnsan öz üzərində işləməlidir. Bunun üçün də mütləq şəkildə istirahət lazımdır. Ona görə də həftə sonları var. Yəni 5 gün işdə olursan, 2 gün evdə. İnsan gərəkdir ki, özünə zaman ayırsın. Söhbət ailə, dostlarla keçirilən vaxtdan getmir. İnsan ən azından gündə 2 saat təkbaşına qalmalıdır. Özün-özünlə üzləşib, özünə istirahət verməlisən. Ona görə də məzuniyyətin məzmununu açıb, ondan sonra fikir bildirmək lazımdır".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**



# Qərbdən pul dilənən İrəvanın Qarabağ riyakarlığı

## Ermənistan həm Rusiyanı, həm də ABŞ-ı öz yanına almağa çalışır - məkrli hədəf; Azərbaycan isə müharibə hazırlıqlarını davam etdirir...

**Dağlıq Qarabağ və Azərbaycanın digər ərazilərinin işğalına görə iki əsas qonşusu ilə sərhədləri bağlı olan Ermənistan inkişaf yoluna çıxmaq üçün uğursuz cəhdləri davam etdirir. İrəvan ilk növbədə Azərbaycan və Türkiyə ilə anlaşmaq əvəzinə, nicatı hələ də uzaq ABŞ-da, quru sərhədi olmayan Rusiyada axtarmaqdadır. Əfsus ki, işğalçı ölkədə inqilab sayəsində hakimiyyətə gələn "demokratik qüvvələr" də tilsimi qırmaq yerinə, devirdikləri rejimin yanlış yolunu tutub.**




"Qərbyönlü" yeni baş nazir Nikol Paşinyan və onun komanda üzvləri hələ də əbəs yerə gözlənti içindədirlər ki, ABŞ və Avropa Birliyi "məxməri inqilab" cəsarətinə görə erməniləri yaxşıca mükafatlandıracaq, Ermənistana böyük maliyyə yardımı edəcək, iri investisiyalar yatıracaq. Bu da ikinci ildir gözə dəymir. Çünki Qərb öz pul-parasının qədrini bilir və onu heç vaxt Rusiyanın vassalı, marioneti olan ölkəyə yatırmaz və ya bağışlamaz.

Paşinyan isə sələfləri kimi, həm Rusiyanın, həm də ABŞ-AB-nin Ermənistanın "əlindən" tutmasını istəyir. Bu da mümkünsüzdür. Di gəl, İrəvan rəsmilərinin ikili oyunu davam edir. Onlar Rusiyada olanda özlərini ruslara, Avropada və ABŞ-da olanda isə qərblilərə ən sədaqətli dost kimi göstərməyə çalışırlar. Ancaq deyildiyi kimi, ermənilər ruslara dost sayılmaz, onlar sadəcə, müti, kölə qismindədir. Qərbə də dost ola bilmirlər, nədən ki, başqasının köləsindən dost-simsar çıxmaz. Odur ki, ermənilər bütün dünyanı, aparıcı Qərb dövlətlərini dolaşıb miskin şəkildə yalvarışlar etsələr də, onlara pul verən yoxdur.

*****

Diqqətçəkicidir ki, hazırda Ermənistanın iki yüksək vəzifəli şəxsi ABŞ-dadır. Onlar parlamentin spikeri Ararat Mirzoyan və xarici İşlər naziri Zöhrab Mnatsakanyandır. Bundan az öncə Ermənistan baş nazirinin müavini Tiqran Avinyan Vaşinqtonda olmuş və ölkəsinə "əli ətəyindən uzun" qayıtmışdı.

Konkret olaraq, A.Mirzoyanın başçılıq etdiyi nümayəndə heyətinin Amerikaya səfərində əsas məqsəd Birləşmiş Ştatlardakı erməni diasporundan və ABŞ-dan Ermənistan iqtisadiyyatına dəstək təmin etmək, yəni Amerikadan pul diləmək və bir də İrana görə işğalçı ölkəni təzyiqlərə tuş gəlməkdən yayındırmaqdır. Ona görə ki, iki mühüm qonşu - Azərbaycan və Türkiyə ilə sərhədləri bağlı olan, üstəlik, qonşu Gürcüstandan keçən tranzit yollarının da qapanma riski ilə üzləşən Ermənistan üçün indi İran "nəfəsliyi" ikiqat əhəmiyyət daşıyır.

**"ABŞ İrana qarşı tətbiq edilən sanksiyalara görə Ermənistana təzyiq göstərməməlidir". Bunu A.Mirzoyan Vaşinqtonda Atlantk Şurasında çıxışı zamanı deyib.** "Biz istəmirik ki, ABŞ İrana qarşı tətbiq edilmiş sanksiyalara görə Ermənistana təzyiq göstərsin. Ermənistan bunun bədəlini ödəyə bilməz", - deyə o bildirib.

Mirzoyan qeyd edib ki, ABŞ-la İran arasında gərginliyin artması Ermənistan iqtisadiyyatına neqativ təsir edir. Çünki iki qonşusu ilə sərhədi bağlı olan Ermənistan İranla münasibətlərdən çox asılıdır. Bundan əlavə, Mirzoyan öz çıxışında Nikol Paşinyan kimi Amerikaya minnət qoymağa cəhd edib. Guya ABŞ erməni xalqına "demokratiya yolu" seçdiyi üçün kömək eləməyə borcludur.

Təbii ki, Amerikada bu nağıllara inananlar çətin tapıla. Bunu ermənilər də bilməmiş deyil. ABŞ-ın İrəvana ciddi maliyyə dəstəyinin hansı halda mümkünlüyü ən azından prezident Donald Trampın bu ilin fevralında Paşinyana göndərdiyi təbrik məktubunda əksini tapıb: öncə qonşu Türkiyə və Azərbaycanla dinc və təhlükəsiz şəraitdə yaşamağa və Rusiya asılılığından çıxmağa nail olmaq. Oxşar ismarış ötən ilin oktyabrında bölgədə səfərdə olmuş ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Con Bolton tərəfindən Paşinyana çatdırılmışdı.

Lakin İrəvan bu çağırışların heç birinə məhəl qoymadı, əksinə, Rusiyaya daha da yaxınlaşma kursu götürdü, Moskvanın diktəsi ilə Suriyaya erməni humanitar missiyası göndərdi - hansı ki, Vaşinqtonda sərt reaksiya doğurdu, Ermənistandakı ABŞ səfirliyi kəskin bəyanat verməli oldu.

Beləcə, Qərbin Qarabağ çağırışlarını qulaqardı edən İrəvan həyasızcasına həmin Qərbdən maliyyə umur, hətta ona minnət qoymağa çalışır. Erməni əhalisinin güzəranı isə inqilabdan sonra da ağır olaraq qalır, ölkədən kütləvi köç davam edir. Ancaq bunlar əlbəttə ki, işğalçı ölkənin, erməni xalqının problemidir. Seçimi də erməni xalqı etməlidir: ya yad torpaqların işğalını davam etdirib miskin həyatla barışmaq, ya da qonşularla sülh anlaşması imzalayıb rifaha qovuşmaq. Ona kimi Azərbaycan sözsüz ki, özünün hərbi və döyüş qabiliyyətini gücləndirməyə davam edəcək - ta ki düşmən zor və ya xoşluqla ədalətli sülhə razılaşanadək.

*****

Bu arada Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən Azərbaycan Ordusunun hərbi hissələrinin döyüş qabiliyyəti, silah və hərbi texnikasının vəziyyəti, eləcə də onların döyüşə hazırolma səviyyəsi yoxlanılmağa başlayıb. Müdafiə Nazirliyindən verilən məlumata görə, hərbi hissələrdən birində olan müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi hissədə şəxsi heyətin döyüş hazırlığı, mənəvi-psixoloji durumunu yoxlayıb, sosial-məişət şəraiti ilə tanış olub və bu istiqamətdə qarşıda duran tapşırıqları bir daha vəzifəli şəxslərə çatdırıb.

Müdafiə naziri qərargah binası, döyüş texnikaları üçün saxlanclar, silah-sursat anbarı, avtomobil parkı, tibb məntəqəsi, əsgər yataqxanası, yeməkxana, hamam-camaşırxana kompleksi, digər inzibati və xidməti obyektlərə baxış keçirib, eləcə də qoşunların döyüşə hazırolma səviyyəsinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı komandanlığa müvafiq göstərişlər verib.

Dünən isə müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına əsasən hərbi birliyin birləşmə və hərbi hissələrinin tabor, divizion komandirləri və onların müavinləri ilə təlim-metodiki toplantı keçirilib. Toplantıya cəlb edilən zabitlərin döyüş hazırlığı üzrə nəzəri bilikləri, praktiki vərdişləri, sürücülük və atəş bacarıqları yoxlanılıb. Fiziki hazırlıqdan və müxtəlif ixtisaslar üzrə məqbullar götürülən zaman zabitlər yüksək nəticə göstəriblər. Təlim-metodiki toplantının sonunda tabor, divizion komandirləri və onların müavinləri gecə şəraitində döyüş atışlı təlim zamanı bölmələrin və atəşin idarə edilməsi üzrə tapşırıqları icra ediblər.



## "Tehran Azərbaycanın ərazi bütövlüyünə sadiqdir" - İran səfiri

**"İran Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləyib". Musavat.com-un məlumatına görə, bu sözləri APA-ya müsahibəsində İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə deyib.**

"Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll olunmalıdır. Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin sonuncu üçtərəfli görüşündə İran xarici işlər naziri bəyan edib ki, İran Dağlıq Qarabağ münaqişəsinin həlli üçün tərəflərin yaxınlaşdırılmasında, münaqişənin həllində rol oynaya bilər", - deyə diplomat bildirib.

İranın həm Azərbaycan, həm də Ermənistanla qonşu olduğunu xatırladan səfirin sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu regiona mənfi təsir edir. "İran münaqişənin həlli üçün əlindən gələni etməyə hazırdır. Lakin bu, münaqişə tərəflərinin öz iradəsindən asılıdır", - deyə o əlavə edib.

Yeni Müsavat
N 150 (7320) 18 iyul 2019

**Azərbaycanda avtomobillərin sayı artdıqca, onlara xidmət göstərən təmir və digər xidmət müəssisələrinin də sayı çoxalır. Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda Azərbaycanda 1,4 milyona yaxın avtomobil var. Bunun 1 milyon 150 mindən yuxarısı minik avtomobilləridir.**

# Avtoservis və avtoyuma məntəqələrində təhlükəsizlik və məsuliyyət problemi - araşdırma

## Maşın sahibləri problemlə üzləşdikdə hara şikayət edəcəklərini bilmirlər







Bu avtomobillərə texniki xidmət göstərən avtomobil təmiri sexi-müəssisəsi, avtoyuma məntəqələrinin sayı isə minlərlədir. Əminliklə demək olar ki, tanınmış markaların yerli servis xidmətləri istisna olmaqla, avtoservislər Azərbaycanın xidmət sektorunda ən aşağı keyfiyyətə malik müəssisələrdir. Bu müəssisələrin böyük əksəriyyətində göstərilən xidmətlərə heç bir zəmanət verilmir, keyfiyyətsiz ehtiyat hissələri və materiallardan istifadə edilir. Avtoservislərin xidmət personalının bacarığı, müştəri ilə davranışları isə daha betər vəziyyətdədir.

Avtomobil sahiblərinin çoxsaylı şikayətlərində avtoservislərə verilən avtomobillərin təhlükəsizliyinə heç bir zəmanətin olmadığı, bir çox hallarda avtomobillərin avtoservislərdə, yuma məntəqələrində fiziki zədələndiyi qeyd olunur. Avtomobil sahibləri bu kimi hallarda hüquqlarını müdafiə etmək üçün hansı orqana müraciət edəcəklərini bilmədiklərini deyirlər.

Düzdür, keyfiyyətsiz, saxta ehtiyat hissələrinə görə istehlakçı hüquqlarının qorunması ilə bağlı qanunvericilikdə müvafiq maddələr var. Lakin avtomobil sahibləri avtoservis və yuma məntəqələrində əmlaklarına dəyən zərərin qarşılanması üçün hansı qurumdan yardım istəyəcəklərini bilmirlər.

Avtoyuma məntəqələrində isə vəziyyət daha bərbaddır. Hətta bir çox yuma məntəqələrində maşını yeniyetmələr götürüb sürür və harasa vurub, gətirib "moyka"nın qarşısına atıb qaçırlar.

### Avtoservislərin fəaliyyəti necə tənzimlənir?

Qeyd edək ki, 2015-ci ildə "Avtomobil nəqliyyatı haqqında" Qanuna edilən əlavə və dəyişikliklərin ölkədə avtoservislərin fəaliyyətində ciddi dönüş yaradacağı gözlənilirdi. Qanuna avtoservislərin fəaliyyətini tənzimləyən 7-ci maddə əlavə olunub. Həmin maddəyə əsasən, avtoservis müəssisələri iki yerə ayrılır - texniki-təmir stansiyaları və texniki təmir sahələri. Texniki-təmir stansiyalarında avtomobillərə bütün növ təmir-texniki xidmətlər göstərilir. Texniki-təmir sahələrində isə avtomobillərə yalnız bir sahə üzrə xidmət göstərilir.

Bu dəyişikliklər avtoservislərin fəaliyyətinə nəzarətin güclənməsini, eləcə də onlara qarşı standartların tətbiqini nəzərdə tuturdu. Eyni zamanda qanuna edilən dəyişikliyə əsasən avtoservislər göstərdikləri xidmətin və təmir işlərinin keyfiyyətinə məsuliyyət daşıyırlar və əgər hansısa problem yaransa həmin nasazlığı pulsuz aradan qaldırmalıdırlar. Qanun texniki xidmətin təminatlı şərtləri yerinə yetirilmiş işlərin nəticələrinin təhlükəsizliyinə və xidmətdən sonra yenidən yaranmış həmin nasazlığın müəyyən edilmiş müddət ərzində ödənişsiz aradan qaldırılmasına görə xidmət göstərənin maddi və hüquqi məsuliyyətini nəzərdə tutur.

Dəyişikliklərin tətbiq olunmasına dair prezident fərmanında avtoservislərin fəaliyyətinə dair yeni tələb və standartların hazırlanması tapşırılmışdı. Yeni standartları keçmiş Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi DİN və Nəqliyyat Nazirliyinin təkliflərini nəzərə almaqla 3 ay ərzində hazırlayıb təsdiqləməli, daha sonra Nəqliyyat Nazirliyi 3 ay müddətində təmir müəssisələrini - avtoservisləri bu standartlarla və onun tələbləri ilə tanış etməli idi. Lakin nəzərdə tutulan yeni standartlar hazırlanıb başa çatdırılmadı. 2018-ci ilin aprelində isə Komitə ləğv olundu. Buna görə də ona həvalə edilmiş işlərin icrası sahəsində hansı addımların atıldığını öyrənmək mümkün olmadı.

Hazırda avtoservislərin fəaliyyəti komitənin 2013-cü ildə qəbul etdiyi iki standartla tənzimlənir. Bunlar AZS STB 960-2013 (Nəqliyyat vasitələrinə texniki xidmət və təmir. Ümumi təhlükəsizlik tələbləri), AZS STB 1175-2013 ("Avtoservis müəssisələrində nəqliyyat vasitələrinə xidmətlər. Xidmət qaydaları") və "Avtomobil nəqliyyatı vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir stansiyaları və sahələri" standartlarıdır.

### "Yol hərəkəti haqqında" Qanunun tələbləri

Bundan əlavə, avtoservislərin fəaliyyətinin tənzimlənməsi ilə bağlı "Yol hərəkəti haqqında" Qanunda da müəyyən müddəalar əksini tapıb. Qanuna əsasən nəqliyyat vasitəsinə texniki xidmət göstərilməsi qaydası Nazirlər Kabineti tərəfindən 2005-ci ildə qəbul edilən "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında", "Nəqliyyat vasitələrinə texniki xidmət göstərilməsi haqqında", "Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir sahələri haqqında" və "Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında" nümunəvi əsasnamələrlə müəyyən edilir.

Bu sənədlərdə avtomobillərə texniki xidmət göstərilməsi ilə bağlı bütün tələblər, şərtlər, öhdəlik və məsuliyyətlər təsbit olunub. Bu sənədlərdə icraçı dedikdə, mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq nəqliyyat vasitələrinin texniki xidməti üzrə fəaliyyət göstərən hüquqi şəxs, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər nəzərdə tutulur. "Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərilməsi haqqında nümunəvi Əsasnamə"də nəzərdə tutulur ki, avtoservislərin önündə hüquqi ünvanı və iş rejimi yazılmış lövhə asılmalıdır.

**Bundan başqa, sifarişlərin qəbul olunduğu otaqda və ya görünən bir yerdə aşağıdakılar olmalıdır:**

*- göstərilən texniki xidmətlərin siyahısı;*

*- göstərilən texniki xidmətlərin tələblərinə uyğun olan standartların adları;*

*- mütləq sertifikatlaşdırma tələb edən xidmətlərin sertifikatlaşdırılması haqqında məlumat (sertifikatın nömrəsi, qüvvədə olma müddəti, sertifikatı verən orqanın adı);*

*- göstərilən texniki xidmətlərin, həmçinin istifadə edilən materialların və ehtiyat hissələrinin qiyməti, ödəniş qaydaları və üsulları;*

*- respublika qanunları və başqa normativ-hüquqi aktları, yaxud müqavilə ilə təyin edilmiş təminat müddətləri.*

Əsasnamənin tələblərinə görə, avtoservislər avtomobilini təmir etdirən şəxsə onun tələbi ilə tanış olmaq üçün bu Əsasnaməni, müqavilənin, sifariş-tapşırıqların, təhvil-təslim aktlarının, qəbzlərin, talonların və icraçı tərəfindən sifarişin qəbul edilməsini təsdiq edən başqa sənədlərin nümunəsini və sair təqdim etməlidir: Avtoservislər müqaviləyə və müvafiq xidmətə aid olan başqa məlumatları istehlakçının xahişi ilə ona bildirməyə borcludur.

Avtoservis sifarişlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə, xidmətə qəbul olunmuş nəqliyyat vasitəsinin qanunvericiliyə uyğun olaraq saxlanılmasına görə məsuliyyət daşıyır.

### Nəzarət orqanının səlahiyyəti yoxdur ki...

Lakin reallıq budur ki, ölkəboyu səpələnmiş avtoservis və avtoyuma məntəqələrində heç bir qanunun, standartın tələbinə əməl olunmur. Və buna görə onlara hər hansı cəzanın verilməsi də mümkün olmur.

"Avtomobil nəqliyyatı haqqında" Qanunun 7-1.6-cı bəndinə əsasən texniki-təmir stansiyalarının (sahələrinin) istehsalat-texniki bazası, texnoloji təchizatı və istehsalat sahələrində texnoloji prosesin təşkili müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi sahə standartlarının tələblərinə uyğun olmalıdır. Texniki-təmir stansiyalarının (sahələrinin) müəyyən olunmuş sahə standartlarının tələblərinə uyğunluğuna nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Qanunun 7-1.7-ci bəndinə görə, texniki-təmir stansiyaları (sahələri) tərəfindən bu Qanunun, habelə bu sahədə müəyyən olunmuş sahə standartlarının tələblərinin pozulmasına görə şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar. Lakin onları bu məsuliyyətə cəlb edəcək orqan faktiki olaraq müəyyənləşməmiş qalır. Belə ki, qanunda avtoservislərin fəaliyyətinin standartlara uyğunluğuna müvaviq nəzarət orqanının nəzarət edəcəyi qeyd olunur. Dövlət başçısının fərmanında nəzarətin hansı orqan tərəfindən həyata keçiriləcəyi dəqiqləşdirilməyib. Əvəzində fərmanda Nazirlər Kabinetinə tapşırılıb ki, nəzarət səlahiyyətlərinin hansı təşkilata verilməsi barədə təkliflərini 3 ay müddətində hazırlayıb prezidentə təqdim etsin. Üstündən 4 ildən çox vaxt keçsə də, nəzarət orqanı hələ də müəyyənləşdirilməyib.

Avtoservislərin işinə nəzarət qismən Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin səlahiyyətindədir. Xidmətin əsasnaməsinə görə, qurum avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki təmir sahələrinin, stansiyalarının fəaliyyətinin avtomobil nəqliyyatı və yol hərəkəti haqqında qanunvericilikdə müəyyən olunmuş tələblərə uyğunluğunu səlahiyyəti daxilində yoxlamaq səlahiyyətinə malikdir. Sənəddə xidmətə qanun pozuntularına yol vermiş şəxslərin əməllərində cinayət məsuliyyəti yaradan hallar olduqda, materialları hüquq-mühafizə orqanlarına göndərmək, qanunvericilikdə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxmaq, təqsirkar şəxslərə qanunvericilikdə müəyyən edilmiş qaydada inzibati tənbeh tədbirləri tətbiq etmək kimi səlahiyyətlər verilsə də, avtoservis və avtoyuma məntəqələrinə münasibətdə bu səlahiyyətlərdən istifadə edə bilmir.

Xidmətdən "Yeni Müsavat"a verilən məlumata görə, onlar, sadəcə, avtoservis və avtoyuma məntəqələrinə şifahi təlimat verə bilirlər. 2016-cı ildən Azərbaycanda sahibkarlıq subyektlərinin əksər növ yoxlamalardan azad edilməsindən sonra DANX avtoservis və avtoyuma məntəqələrinin fəaliyyətinə nəzarət məqsədilə reydlər keçirməyi dayandırıb. Hazırda xidmət yalnız xırda monitorinqlər həyata keçirir ki, bu zaman aşkarlanan pozuntulara görə hər hansı inzibati addım atmaq səlahiyyətində deyil: **"Biz yalnız aşkar olunmuş nöqsanların aradan qaldırılmasına dair metodiki tövsiyələr verə bilərik. Digər hər hansı cəzanı tətbiq etmək səlahiyyətimiz yoxdur".**

Göründüyü kimi, avtoservislərin fəaliyyətini tənzimləyən qanunverici baza mövcud olsa da, ona nəzarət edən konkret qurum faktiki olaraq müəyyənləşməyib. Buna görə də bu xidmət müəssisələrində qanunsuzluqla üzləşən - avtomobili zədələnən, qaçırılan, keyfiyyətsiz servis edilən sürücülər hüquqlarının müdafiəsi üçün müraciət etməyə qurum tapmırlar. Belə vəziyyət avtoservis və avtoyuma məntəqələrində xidmətin keyfiyyətinin yüksəlməsinə imkan vermir: operativ nəzarət olmayan yerdə keyfiyyətli xidmət, əlbəttə, mümkün deyil...

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019

**Yay başladısa, məktəblilərin 3 aylıq uzun tətilinə start verilir. Onlar tədris ilinin yorğunluğundan xilas olmaq, yeni tədris ilinə tam enerji ilə başlamaq üçün istirahət etməlidir. Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə tərəfdaşlığı ilə keçirilən "Məktəblinin dostu" adlı pilot layihəsini və özəl şirkətlərin təşkil etdiyi bahalı düşərgələri nəzərə almasaq, Azərbaycanda məktəblilər üçün tətil düşərgələri yoxdur.**

# "Məktəblilər 3 ayı televizorun, kompüterin qarşısında keçirməməlidir"

## Şagirdlərin yay tətilini necə keçirməsinə dair psixoloqdan valideynlərə məsləhətlər

Onlar valideynlərinin tətil planına uyğun hərəkət edirlər. Kimisi rayonlara nənə-baba ocağına gedir, kimisi də yay boyu evdə oturur. Valideynlər də övladlarının 3 ayı səmərəsiz keçirməsindən narazıdır. Çünki özəl şirkətlərin təşkil etdiyi düşərgələr onların cibinə uyğun deyil. Bu düşərgələrin qiyməti 400-1500 manat arasında dəyişir.

Məktəblilərin yay tətili günlərinin səmərəli, maraqlı və əyləncəli olması məqsədilə həyata keçirilən "Məktəblinin dostu" pilot layihəsi isə ödənişsiz halda 35 məktəbə aiddir. "Yay məktəbi" V və VI siniflər üçün iyul ayında, VII və VIII siniflər üçün isə avqust ayında keçiriləcək. "Yay məktəbi" zamanı 2000-dən çox şagird üçün təlim, seminar və informativ sessiyaların keçirilməsi, müxtəlif idman yarışlarının, əyləncəli saatların təşkil edilməsi planlaşdırılır.

Təhsil Nazirliyi məktəblilər üçün kütləvi yay düşərgələri təşkil edəcək. Amma nə zaman?

**Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin sektor müdiri Hilal Salmanov mediaya açıqlamasında bildirib ki, kütləvi düşərgələrin təşkili gələcəkdə maddi-texniki baza yaxşılaşdırıldıqdan sonra mümkün olacaq:** "O zaman məktəblilər düşərgəyə seçmə şəkildə aparılmayacaq, istənilən sayda şagird qatıla biləcək. Bu gün üçün Təhsil Nazirliyi tərəfindən məktəblilər üçün qısamüddətli yay düşərgələri təşkil olunur. Bura əsasən yerli icra hakimiyyəti orqanları tərəfindən təhsil sahəsində, idmanda seçilən, fənn olimpiadalarında qalib gələn şagirdlər yönləndirilir. Son 3 ildə bu düşərgələrə minlərlə şagird cəlb edilib".


Fərqanə Mehmanqızı

Bəs məktəblilərin psixoloji durumu üçün tətilləri necə keçirilməlidir? Valideynlər nələrə diqqət etməlidir? 3 ay boyunca məktəblinin dərsdən tamamilə uzaqlaşdırılması doğrudurmu?

**"Yeni Müsavat" mövzu ilə bağlı psixoloq Fərqanə Mehmanqızının fikirlərini öyrənib:** "Məktəblilərin yay tətili boyunca kitabdan, dərsdən tamamilə uzaqlaşdırılması düzgün deyil. Çünki 3 ay boyunca dərslərdən uzaqlaşan məktəblinin, xüsusilə də ibtidai sinif şagirdlərinin daha sonra dərslərə adaptasiya olması çətin olur. Yaxşı olardı ki, münasib qiymətə məktəblilər üçün yay düşərgələri olardı. Məktəblilərin özününkişafı davam edərdi. Onların özfəaliyyətlərinin dayandırılması doğru addım deyil. Çünki məktəblilərin şəxsiyyətinin formalaşması hər an davam edir, onlar özünü inkişaf üçün dayanmadan çalışmalıdır. Valideynlər də onlara yardımçı olmalıdır. Uzunmüddətli tətil onların inkişaf rutinini pozmamalıdır. Məktəblilər 3 ayı televizorun, kompüterin qarşısında keçirməməlidir. Onlar həm tətil boyu dincəlməli, əylənməli, həm də öyrənməlidir. Əgər valideynlərin övladlarını düşərgələrə göndərməyə maddi imkanı çatmırsa, evdə övladlarının səmərəli vaxt keçirməsinə çalışmalıdırlar. Məktəblilər günün müəyyən saatını kitab oxumalıdır. Çünki kitab oxumaq uşaqlarda məntiq, çalışqanlıq və iradə kimi keyfiyyətləri inkişaf etdirir. Ona görə uşaqlara kitab oxumaq vərdişlərini aşılamaq lazımdır. Valideynlər kitaba marağı olmayan övladları ilə bərabər qiraət etsinlər. Onlar üçün riyazi məntiq testləri alsınlar, üzdən oxumanı aşılasınlar. İmkan verməsinlər ki, 3 ay boyunca məktəblilər kitabdan, özünüinkişafdan tamamilə uzaqlaşsınlar".

❑ **Könül İBRAHİM,**
**"Yeni Müsavat"**

# Aprel şəhidlərinin uşaqları üçün yay düşərgəsi təşkil edilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri çərçivəsində yeni bir istiqamət kimi "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin iştirakı ilə şəhidlərin uşaqları üçün yay düşərgəsinin təşkili layihəsi reallaşdırılır. Bu barədə müsavat.com-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**



Nazirlik aprel şəhidlərinin uşaqlarından (23 nəfər), eləcə də azyaşlı olanların valideynlərindən (7 nəfər) ibarət 30 nəfər üçün İsmayıllı rayonundakı istirahət mərkəzlərindən birində yay düşərgəsi təşkil edib. 17-26 iyul tarixlərini əhatə edəcək yay düşərgəsinin təşkilində məqsəd həmin uşaqların yay tətilini daha maraqlı və yaddaqalan, səmərəli keçirmələrinə şərait yaratmaqdır.

İstirahət müddətində uşaqlar üçün maraqlı və əyləncəli oyunlar, viktorinalar təşkil ediləcək. Onlar üçün həmin bölgənin mədəni-tarixi yerlərinə ekskursiyaların, intellektual yarışların və s. keçirilməsi də nəzərdə tutulur.

# "Nazirlik qarşısına məqsəd qoyub ki, məktəblərdə daha savadlı pedaqoqlar çalışsın"

## Təhsil eksperti: "Bu, müəllim olmaq istəyənlərin üzərinə böyük məsuliyyət qoyur"

**İyulun 8-dən müəllimlərin işə qəbulu prosesinə start verilib. İyulun 17-də isə ibtidai sinif müəllimliyi üzrə imtahan keçirilib. Bu imtahanda 3 nəfər 58 bal toplayaraq yüksək nəticə əldə edə bilib. İyulun 18-də, yəni bu gün ibtidai sinif və təsviri incəsənət müəllimi olmaq istəyənlər imtahan verəcəklər.**

Nazirliyin yaydığı digər məlumata görə, bu günədək imtahanda qayda pozuntusu edən 5 müəllimin nəticəsi ləğv edilib. Onların arasında başqasının yerinə imtahan vermək istəyən şəxslər də var.

Qeyd edək ki, imtahan proseslərində media və ictimaiyyət nümayəndələri, ziyalılar da iştirak edib. Onların əksəriyyəti imtahan prosesi ilə bağlı mətbuatda, sosial şəbəkələrdə öz fikrini bildirib.


Etibar Əliyev

**Təhsil eksperti Etibar Əliyev mövzu ilə bağlı "Yeni Müsavat"a bildirdi ki, prosesdə media və ictimaiyyət nümayəndələrinin də iştirak etməsi, prosesi yaxından izləməsi çox müsbət haldır:** "Yeni biz hətta sualların xarakteri ilə də tanış olduq. Burada əsas odur ki, niyyət xoşdur. Təhsil Nazirliyi qarşısına məqsəd qoyub ki, məktəblərdə daha təhsilli, savadlı pedaqoqlar çalışsın. Bu həm də pedaqoji kadrlar hazırlayan ali məktəblərin üzərinə müəyyən məsuliyyətlər yaradır. Yeni gələcəkdə bu prosesin nəticələri əsasında söyləmək mümkün olacaq ki, hansı ali məktəb məzunlarının imtahan nəticələri yaxşıdır və yaxud əksinə. Bu, həm də bir növ ali məktəblərin reytinqini müəyyənləşdirəcək. Digər tərəfdən, bu, müəllim olmaq istəyənlərin üzərinə böyük məsuliyyət qoyur. Növbəti müəllim olmaq istəyən nəslin qarşısında müəyyən öhdəliklər qoyacaq ki, yaxşı təhsil, yaxşı hazırlıq lazımdır. Bütün bunlar çox mühüm missiyalardır və düşünürəm ki, artıq 500-dən yuxarı bal toplayıb, pedaqoji ixtisasları seçən abituriyentlərin sayının çoxalması faktorunu da nəzərə alsaq, yaxın gələcəkdə orta məktəblərdə daha savadlı müəllimlər çalışacaq və bu sahədə mühüm dönüş yaranacaq".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# "Azərbaycan Elm Assosiasiyasının məqsədi elmə marağı artırmaqdır"

**"2016-cı ildə təsis olunan Azərbaycan Elm Assosiasiyasının əsas məqsədi Azərbaycanda elmin inkişafına töhfə vermək, dünya elmində baş verən yeniliklərin Azərbaycan elmi, kütləvi auditoriyalarına operativ şəkildə çatdırılması və ölkədə elmə marağın artırılmasından ibarətdir".**

Bunu APA-ya Azərbaycan Elm Assosiasiyasının həmsədri, gənc tədqiqatçı İnqilab Şahbazov deyib.

O bildirib ki, assosiasiya bu istiqamətdə infoqrafika layihəsini icra edir və elmin müxtəlif sahələrində məlumatları infoqrafika şəklində oxuculara təqdim edir: "İnfovideo layihəsi çərçivəsində isə müxtəlif elmi mövzular haqqında məlumatlandırıcı videolar hazırlanır və sosial şəbəkələrdə paylaşılır. "Günəş panelləri və səhralar", "İqtisadi diversifikasiya" kimi aktual mövzuları əhatə edən videolar yığcam və sadə dildə hazırlanır".

**İ. Şahbazovun sözlərinə görə, assosiasiyanın rəsmi internet səhifəsində - azescience.org-da məqalələr bölməsi yaradılıb:** "Burada müxtəlif elm sahələrinə dair mövzular üzrə yazılar paylaşılır. "Azərbaycanda günəş enerjisindən istifadə", "İlk təyyarə və uçuşun tarixçəsi" kimi məqalələr doğma dilimizdə internet resurslarının zənginləşdirilməsinə xidmət edir. Assosiasiyanın daha bir layihəsi isə elmin müxtəlif sahələri üzrə öz sahələrində müəyyən uğur əldə etmiş gənc mütəxəssislər tərəfindən seminarların keçirilməsidir. "Cəza metodları", "Tibdə nanotexnologiya", "Yeniyetməlik və gənclik dövrünün psixologiyası" kimi geniş mövzuları əhatə edən seminarlarımız gənc auditoriyaya müasir elmi yeniliklərin çatdırılmasında mühüm rol oynayır".

**Azərbaycan Elm Assosiasiyasının həmsədri qeyd edib ki, hazırda assosiasiyada 20-dən çox gənc könüllü əsaslarla çalışır:** "Assosiasiyaya üzv olaraq, onun fəaliyyəti, gələcək seminarlar, forumlar və s. haqda elektron məktub vasitəsilə məlumat almaq mümkündür. Eyni zamanda assosiasiyanın fəaliyyəti və layihələrini internet səhifəsi ilə bərabər, sosial şəbəkədə facebook.com/azescience/ səhifəsindən də izləmək mümkündür. Assosiasiyaya üzv olmaq istəyənlər rəsmi internet səhifəmizə daxil olmaqla, müvafiq bölmədə qeydiyyatdan keçə bilərlər".

YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019

# Səhərlər çox idman etmək olmazmış...

## Mütəxəssislər həyəcan təbili çalır

**Sağlam qalmaq istəyən insanlar idman üçün adətən səhər saatlarını seçir. Qaçmaq, gəzintiyə çıxmaq, idman zallarına getmək əsasən səhər saatlarında ayrılacaq vaxtlar üçün keçərlidir. Ən azı əksərimiz bunun vaxtını belə bilirik.**



Amma elmi araşdırmalarda fərqli məqamlar öz əksini tapır. “Yeni Müsavat” xəbər verir ki, ümumiyyətlə, məşq vaxtı əzələ artımı üçün güc məşqləri ilə yağ yandırmaq üçün kardio məşqlərini ayırmaq lazımdır. Belə ki, onların enerji sərfiyyatı fərqli olduğu üçün orqanizm faktiki olaraq eyni vaxtda həm əzələ yığa, həm də yağ yandıra bilmir.

Ənənəvi olaraq hesab olunur ki, səhərlər kardio məşqlər üçün daha əlverilşli zaman kimi qəbul edilir. Günorta və axşam saatlarında isə əzələ yığmaq üçün məşqlər edilə bilər. Lakin məşq saatlarının seçilməsi adətən həyat tərzi və gündəlik işlərdən asılı olaraq seçilir.

Səhər tezdən məşq bir çoxları üçün olduqca çətin gəlir. Bu zaman insanın yetərli enerjisi olmadığı üçün yorulma faktı müşahidə olunur.

Digər bir sual isə odur ki, səhərlər idman zalına getmək nə dərəcədə doğrudur. İnsan yuxudan oyanan kimi, səhər yeməyini yemədən, sadəcə, bir stəkan su və ya meyvə şirəsi içməklə o qədər enerjini necə xərcləyə bilər? Əgər qlikogen ehtiyatınız yetərli olmasa, məşq zamanı qanda şəkəriniz aşağı düşəcək, bununla da məşqiniz ağırlaşacaq, huşunuzu belə itirə bilərsiniz. Məşq üçün orqanizmin qlikogen formasında 100-150 qr karbohidrata ehtiyacı var.

Məşqdən saat yarım əvvəl güclü səhər yeməyi əzələlərinizi enerji ilə doldura bilər. Məsələ ondadır ki, məşqdən sonra əzələlər yenidən qida tələb etdiyi üçün ikinci səhər yeməyinə də ehtiyac olacaq.

Əgər səhər yeməyi yeyə bilməmisinizsə və zala gedirsinizsə, ən azı geyner qəbulu mütləqdir! Zala çatdıqda artıq idman qidası həzm olunacaq və enerjisi qana yayılacaq. Yaxşı olar ki, məşqdən sonra səhər yeməyi yeyəsiniz. Bu, ümumiyyətlə, optimal metod hesab olunur. Tox qarına məşq etmək bir çoxları üçün olduqca çətindir.

Yağ yandırma prosesi yalnız qanda şəkərin az olması halında baş tutur. Buna görə arıqlamaq istəyənlər kardio məşqlərini ən azı 30-40 dəqiqə davam etdirməlidirlər. Bu zaman orqanizm qlikogen enerjisini sərf edir və qanda şəkərin miqdarı düşməyə başlayır. Ardınca adrenalin hormonu yüksəlməyə başlayır ki, yağları yandırır. Səhər tezdən bu proses daha az zamanda baş verir.

Həkimlər məsləhət görür ki, hər gün azı 45 dəqiqə idman etmək lazımdır. Əslində bu, ən az həddir. Amma vaxt varsa idmanın bir-iki saat edilməsi tövsiyə edilir. İdmanı nə vaxt etmək barədə xüsusi qayda olmasa da, səhərlər idman etmək məsləhət görülmür. Çünki əsas etibarilə ürək problemləri və ani hipertonik böhranlar səhər saatlarında olur. Diabet xəstələrinə axşam yeməyindən 2 saat sonra idman etmək tövsiyə olunur.

Piyada gəzmək çox faydalıdır, amma aktiv sürətlə gəzmək məsləhətdir. Qaçaraq deyil, iri addımlarla addımlamaq daha faydalıdır. Hərəkət zamanı döş sümüyü arxasında ağrıları olmayan və 45 yaşından aşağı olanlar müəyyən qədər idman edə bilərlər.

Maddələr mübadiləsini işlətmək üçün oyandıqdan 30 dəqiqə sonra nahar etmək lazımdır. Ancaq səhər idmanlarına görə nahar etmirik. Belə olanda, bütün gecə ac qalan bədənimiz boşalan enerji anbarlarını doldurmaq üçün daha çox karbohidrata ehtiyac duyur.

Təklif odur ki, idmandan əvvəl zəngin bir nahar etmək yerinə bir ovuc quru ərik və ya yarım banan yeyə bilərsiniz. Bundan başqa, bədəniniz gecə boyunca susuz qalır ki, buna görə mütləq bir stəkan su içməlisiniz.

❑ **Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

# "Bakcell" sosial şəbəkələrdə cavablandırılmış müraciətlərə görə ən yüksək nəticə göstərməkdə davam edir

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi "Bakcell" şirkəti abunəçilər tərəfindən “Facebook” üzərindən göndərilən müraciətlərin effektiv cavablandırılmasına görə növbəti dəfə “Socially Devoted” sertifikatına layiq görülüb.**




Böyük şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqini həyata keçirən beynəlxalq “Socialbakers” şirkəti 2019-cu ilin II rübündə daxil olan sorğuların "Bakcell" tərəfindən 100%-ni cavablandırdığını qeyd edib. Qeyd edək ki, "Bakcell" cari ilin I rübündə də ən yüksək nəticə göstərərək “Socially Devoted” sertifikatına layiq görülüb. "Bakcell" şirkəti son bir neçə ildə abunəçi müraciətlərini 100% cavablandıraraq ən yüksək nəticəyə nail olur.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti “Bakcell"in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Sosial şəbəkələr məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və abunəçilərin suallarının cavablandırılması baxımından “Bakcell”in vacib kommunikasiya vasitələrindən biridir.

"Bakcell" haqqında

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi "Bakcell" şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 4G/LTE mobil internet xidməti göstərir.

"Bakcell" şirkətinin 4G şəbəkəsi artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 40-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təmin edir.

7500-dən artıq baza stansiyası vasitəsilə "Bakcell" şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan “P3 Communications” şirkəti tərəfindən "Bakcell" şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb (“Best in Test”). 2018-ci ildə şirkət “Azərbaycanın ən sürətli mobil şəbəkəsi” adına layiq görülüb. Bu mükafat bütün dünyada tanınmış “Ookla” şirkəti tərəfindən “Bakcell”ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib

"Bakcell" və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.Bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün
www.Bakcell.com/az/news
(və ya İngilis dili üçün www.Bakcell.com/en/news) səhifəsinə daxil olun.

Qeyri-"Bakcell" abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə “Bakcell”in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.

# Maskalanıb mənzilə basqın edən dostlara 39 il həbs cəzası verildi

**Bakıda mənzilə basqın etməkdə ittiham edilən şəxslər növbəti dəfə hakim qarşısına çıxarılıb.**



Onlar basqın etdikləri evdə külli miqdarda pul olduğunu ehtimal ediblər, amma cəmi 415 manat pul tapıblar.

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində mənzilə basqın etməkdə ittiham edilən 1981-ci il təvəllüdlü Ələddin Muradov, 1991-ci il təvəllüdlü Orxan Məmmədov və 1992-ci il təvəllüdlü Şamxal Həsənovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.

Hakim Samir Əliyevin sədrliyi ilə keçirilən məhkəmə iclasında hökm oxunub.

Hökmə əsasən Ələddin Muradov 13 il 6 ay, Orxan Məmmədov 13 il, Şamxal Həsənov isə 12 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

İttihamda yazılır ki, adıçəkilən şəxslər Dilarə Əhmədovanın evinə basqın ediblər. Onlar Dilarə Əhmədovaya fiziki güc tətbiq edərək, ona bədən xəsarətləri yetiriblər və mənzildən 11 min 376 manatlıq oğurluq ediblər. Əsasən qızıl-zinət əşyaları ələ keçirilib.

Elan olunmuş ittihamla Ələddin Muradov və Orxan Məmmədov özünü qismən təqsirli bilib. Şamxal Həsənov isə özünü qətiyyən təqsirli bilməyib.

Ələddin Muradov və Orxan Məmmədov evə oğurluğa getdiklərini etiraf ediblər. Amma evdən qeyd edilən məbləğdə pul götürmədiklərini, həmçinin mənzil sahibinə xəsarət yetirmədiklərini deyiblər.

Təqsirləndirilən Şamxal Həsənov ifadəsində göstərib ki, özünü sadəcə hadisəni bilib xəbər verməməkdə günahkar hesab edir: “Mən nə evə getmişəm, nə də başqa iş görmüşəm. Müstəntiq dedi ki, sən də bunlarla birlikdə içəri gedəcəksən”.

Qeyd edək ki, təqsirləndirilən şəxslərə qarşı Cinayət Məcəlləsinin 181.3.2-ci (quldurluq; külli miqdarda əmlak əldə etmək məqsədi ilə) maddəsi ilə ittiham irəli sürülüb.

❑ **İlkin MURADOV. Musavat.com**

YENİ MÜSAVAT
N 150 (7320) 18 iyul 2019

# Parkinqlərdə yenidən qiymət artımı gözlənilir

## BNA 423 parkinqi Bakı Şəhər İcra Hakimiyyətindən aldı; **ekspert:** “Hər maşın sürənə varlı kimi baxmaq olmaz”



**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Bakı Nəqliyyat Agentliyinə (BNA) 423 parkinqi təhvil verib. Bunu BNA-nın mətbuat katibi Mais Ağayev bildirib. M.Ağayev deyib ki, yerlər mütəxəssislər tərəfindən təhlil edilir: “Lakin bu o demək deyil ki, qeyd edilən parklanma yerlərinin hər birində agentlik yenidən parklanma təşkil edəcək. Bu yerlər mütəxəssislərimiz tərəfindən təhlil edilir və yalnız məqsədəmüvafiq hesab edilən, yəni nəqliyyat sıxlığına, xüsusən də ictimai nəqliyyatın hərəkətinə maneə yaratmayan məntəqələrdə parklanma yerləri təşkil ediləcək. Parklanma yerlərinin idarə edilməsi ilə bağlı işlər artıq yekunlaşmaq üzrədir. Yaxın aylarda vurğuladığım məsələlər öz təsdiqini tapdıqdan sonra işlərin icrasına başlanılacaq”.**

O eyni zamanda qeyd edib ki, hazırda BNA tərəfindən parklanmanın idarə edilməsi üçün zəruri olan komponentlərin təkmilləşdirilməsi işləri davam etdirilir. “Bu işlərə Bakı şəhəri üzrə parklanma tələbatına uyğun olaraq zonaların müəyyənləşdirilməsi, bu zonalar üzrə qiymət tarifləri, onların qüvvədə olma vaxtlarının təyin edilməsi və qanunvericilikdən irəli gələn digər məsələlər daxildir. Qeyd edilən məsələlər parklanmanın idarə edilməsi üçün çox vacibdir. Parklanmanın düzgün idarə edilməsi Bakı şəhərində nəqliyyat şəraitinin yaxşılaşdırılması, sıxlıqların azaldılması, insanları şəxsi nəqliyyat vasitələrindən istifadədən çəkindirmək və ictimai nəqliyyatdan istifadəni stimullaşdırmaq üçün əsas amillərdən biridir. Bu sadalananlara nail olmaq şəhərin ekoloji mühitini yaxşılaşdırmaq, atmosferin çirklənmə səviyyəsini aşağı salmaq, digər nəqliyyat vasitələrinin səyahət vaxtını və yanacaq sərfiyyatını azaltmaqla iqtisadi cəhətdən də müsbət nəticələr əldə etmək deməkdir”. Ölkə başçısının 6 iyulda imzaladığı fərmanla Bakı şəhərinin inzibati ərazisində parklanma, habelə dayanma və durmanın qadağan edildiyi yerlərdə inzibati xəta törədilməsinə görə elektron protokolların tərtib edilməsi məqsədilə foto və ya videoqeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin quraşdırılması Bakı Nəqliyyat Agentliyinə həvalə edilib. Bu fərmana görə, indiyədək Bakı Şəhər İcra Hakimiyyətinin səlahiyyətində olan parkinqlər də BNA-nın nəzarətinə verilib. Lakin müəyyən səbəblərdən parklama yerlərinin meriya tərəfindən təhvili gecikdirilib.

BNA-nın parkinqlərdə qiymət artımı ilə bağlı Nazirlər Kabinetinə müraciətlərinin olması haqda məlumatlar var. Bakının mərkəzində yerləşən parkinqlərin qiymətləri real vəziyyətə uyğun hesab edilmir. Bakının mərkəzində ən bahalı parkinq “28 Mall” ticarət və əyləncə mərkəzinin altında yerləşir. “28 Mall”da parklamanın qiyməti belədir:

**1 saat - 1 manat**
**1-3 saat - 2 manat**
**3-5 saat - 3 manat**
**5-7 saat - 5 manat**
**7-24 saat - 20 manat**

Parkinqdə təqdim olunan giriş çekini itirən müştərilər 20 manat cərimə olunur. Bulvar ərazisindəki “Park Bulvar”da isə qiymətlər belədir:

**0-1 saat - 1 manat**
**1-3 saat - 2 manat**
**3-8 saat - 3 manat**
**8-12 saat - 6 manat**
**12-15 saat - 10 manat**

Giriş çekinin itirilməsinin qarşılığında isə 10 manat cərimə ödənilməlidir. Parkinqdə 24 saat avtomobil saxlamaq qadağandır. Bakıda fəaliyyət göstərən ən böyük avtomobil dayanacaqlarından biri isə Fəvvarələr meydanının yanındakı “Garage”dir. Burada təklif olunan qiymətlər də bahadır. 5 mərtəbəli dayanacaq parkinq sizə 0-1 saat - 1 manat

**1-3 saat - 2 manat**
**3-6 saat - 3 manat**
**6-12 saat - 6 manat**
**12-24 saat - 10 manata başa gələcək.**

Azərbaycanın baş meydanı - Azadlığın altındakı ölkənin ən böyük yeraltı avtomobil parkinqində qiymətlər 1 manatdan başlayır.

**0-2 saat - 1 manat**
**2-5 saat - 2 manat**
**5-12 saat - 3 manat**
**12-24 saat - 6 manat**

Bu dayanacaq 24 saatlıq istifadəsi üçün ən ucuz qiymətə xidmət göstərən dayanacaqdır. İtirilmiş parkinq çekinə görə cərimə isə 60 çörək qiyməti qədərdir: 30 manat.

Füzuli meydanı yaxınlığındakı yeraltı dayanacağın da minimal qiyməti 1 manatdan başlayır. Parkinqlərdən 15 dəqiqəlik istifadə pulsuzdur. Amma 15 dəqiqəlik limit çox parkinqə giriş-çıxış müddətini aşır. Pulsuz xidmətdən istifadə etmək praktiki olaraq mümkün deyil. Bakıda parkinqlər bahadır deyə sürücülər alternativ variantlara üstünlük vermək məcburiyyətində qalırlar. Nəqliyyat vasitələrini daha çox məhəllələrdə, həyətlərdə saxlamağa üstünlük verirlər.

**Ekspert, avtosfer.az saytının baş redaktoru Elməddin Muradlı Bakıda parkinq qiymətlərinin baha olmasını diqqətə çatdırır. Deyir ki, Bakı Nəqliyyat Agentliyi təhvil aldığı parkinqlərdə qiymət məsələsi ilə bağlı Nazirlər Kabinetinə uyğun təkliflər verə bilər:** “Qiymət müəyyən olunarkən ölkə vətəndaşlarının maddi durumu nəzərə alınmalıdır. Hər maşın sürənə varlı, iş-güc sahibi kimi baxmaq olmaz. Nizami küçəsi, Neftçilər prospektində və bu kimi küçələrdə, prospektlərdə bir qiymət, Əhmədlidə, Sabunçuda bir başqa qiymətlər təklif olunmalıdır. "İçərişəhər"ə kim maşınla girmək istəyirsə, orada yaşayanlar xaric, 2-3 manat parkinq haqqı ödəsinlər. Amma bu cür qiyməti insanların istirahətə gəldiyi Milli Parkın yaxınlığındakı parkinqlərə tətbiq etmək olmaz. Həm də parkinqlər uyğun yerlərdə olmalıdır. Kukla Teatrına uşaq gətirən valideyn maşını park etmək üçün Azadlıq meydanının altındakı parkinqə gedib çıxmamalıdır. Yeni parkinqlər şəhərdə çox yerdə olmalıdır. Hazırda durum qiymət artımına getməyə adekvat deyil. İlk növbədə hər kəsə əlçatan olan parkinqlər və qiymətlər müəyyən olunmalıdır. Vətəndaş şəhərin kənarından mərkəzə istirahətə gəlirsə, deməli, Milli Parkda, teatrda, əyləncə yerlərində azı 3 saat keçirəcək. Ondan bu müddət üçün niyə 3-5 manat alınmalıdır?"

**Elməddin Muradlı deyir ki, bu gün parkinq yerləri bərbad durumdadır:** “Şəhərdə tikinti o şəkildə aparılıb ki, bu gün küçələrdə parkinqə demək olar ki, yer qalmayıb. Belə bir halda qiymət artımından danışmaq yersizdir. Vətəndaşların maddi durumunu nəzərə almaq lazımdır. Hamının gəliri eyni deyil ki, hər gün parkinqə 3-5 manat xərcləsin. Elə məmur övladları var ki, ömürlərində 1 gün belə işləməyiblər, 250-300 minlik maşınlarda gəzir, parkinqə 100 manat versələr belə veclərinə deyil. Amma elə vətəndaşlar da var ki, şəhərin mərkəzinə gündəlik qazanc üçün gəlirlər. Gündə 15-20 manatı zorla qazanırlar. Onlardan hər gün 2-3 manat parklama haqqı almaq uyğun deyil. Parklama qiymətləri müəyyən edilərkən belə məsələlər nəzərə alınmalıdır. Fəhlə maşınla şəhərin mərkəzinə gələ bilməz? Hər maşın sürənə imkanlı şəxs kimi baxmaq olmaz”.

**Elməddin Muradlı deyir ki, şəhərin elə mərkəzi küçələri var ki, günün müəyyən saatlarında həmin küçələrdə parkinqə icazə verilə bilər:** “Məsələn, Neftçilər prospektində Kukla Teatrını keçəndən sonra üzü Muzey Mərkəzinə doğru yol 2 zolaqdan 5 zolağa qədər genişlənir. Bulvar boyunca, düz Azadlıq meydanına qədər sağ zolaqdan tək-tək sürücülər istifadə edir. Məsələn, axşam 7-dən sonra həmin zolaqda parkinqə icazə verilə bilər. Heç bir qanunda Bakıda bütün parkinqlərin ödənişli olması yazılmayıb. Məcbur deyil ki, hər parkinq pullu olsun. Saatı 1 manata parkinq ”Torqovı”da, Malakan bağı ətrafındakı parkinqlərdə olsun. Amma şəhərin hər tərəfində bu cür parkinq haqqı almaq düzgün deyil".

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

# Xəzərsahili torpaqların mühafizəsi üçün monitorinq qrupları yaradılıb

**Əmlak Məsələləri Dövlət Komitəsi Xəzər dənizinin 20-50 metrlik sahilboyu torpaqlarının mühafizəsi ilə bağlı nəzarəti daha da gücləndirir.**




“Report” xəbər verir ki, bu barədə komitənin açıqlamasında bildirilir.

Məlumatda həmçinin deyilir ki, bununla əlaqədar olaraq Xəzər dənizinin Bakı şəhərinin Qaradağ, Xəzər, Suraxanı, Binəqədi rayonları, eləcə də Sumqayıt şəhərinin ərazisində olan zonalarında monitorinq qrupları yaradılıb.

Aparılan monitorinq zamanı Xəzər dənizinin sahilboyu mühafizə zolağı torpaqlarından qanunsuz istifadə halları aşkarlanır. Xəzər dənizinin mühafizə zolağına aid ərazilərini qeyri-qanuni istifadə edən torpaq mülkiyyətçiləri barədə İnzibati Xətalar Məcəlləsinin 248-ci maddəsinə əsasən inzibati protokollar tərtib edilir.

Hazırkı dövrədək İnzibati Xətalar Məcəlləsinə əsasən təqsirkar şəxslər barədə 80 halla bağlı protokol tətbiq edilib, torpaq sahəsinin zəbtolunması ilə bağlı Cinayət Məcəlləsinin 188-ci maddəsinin əsasən 76 hal barəsində Daxili İşlər Nazirliyinə müraciətlər göndərilib, 39 işlə bağlı məhkəmələrdə iddia qaldırılıb.

Qanunla 20-50 metr zolaqda hər hansı tikintinin aparılması üçün xüsusi razılıq olmalıdır. Dəniz sahilinin hasarlama və ya digər üsullarla bağlanılması yolverilməzdir. Hasarlama işləri yalnız qəfəsəli olmaqla uzunluğu 200 metrdən artıq olmamalıdır və hər 200 metrdən sonra dəniz sahilinə 6 metr enində gediş-gəliş yolu saxlanılmalıdır.

Xəzər dənizinin (gölünün) Azərbaycana məxsus olan bölməsinin sahilboyu 20-50 metrlik zolağına aid olan torpaq sahələri ilə bağlı tələblərin pozulmasına görə fiziki, vəzifəli və hüquqi şəxslər müvafiq olaraq 4 min manat, 8 min manat və 40 min manat cərimələnir. Həmçinin Cinayət Məcəlləsində Xəzər dənizinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaqlara münasibətdə vəzifəli şəxslər 7 ildən 10 ilədək müddətə azadlıqdan məhrum etmə nəzərdə tutulub.

Bu hallar torpaq qanunvericiliyinin ciddi şəkildə pozulmasına səbəb olmaqla yanaşı, vətəndaşların Xəzər sahilində istirahət hüquqlarını da məhdudlaşdırır, bəzən tamamilə mümkünsüz edir. Eyni zamanda sahilboyu əraziləri qanunsuz olaraq hasarlanması həmin yerin panoramik görünüşünü pozur. Bu isə turizm baxımından mənfi fəsadlara gətirib çıxarır.

Xəzər dənizinin sahilboyu torpaqlarının mühafizəsi ilə bağlı monitorinqlər davam etdiriləcək. ƏMDK vətəndaşları torpaq istifadəçiliyi ilə bağlı qanunvericiliyin tələblərinə əməl etməyə çağırır.

# YENİ MÜSAVAT

## Son səhifə

*N 150 (7320) 18 iyul 2019*


## Bunları bilirsinizmi?

* Almaniyada bir çox qocalar evinin önündə yaşlı vətəndaşların qaçıb getməsinin qarşısını almaq üçün saxta dayanacaqlar var.
* Bütün qütb ayıları solaxay olur.
* Fillər bellərindəki dəri qırışıqlıqlarını ağcaqanadları öldürmək üçün istifadə edirlər.
* Bir qaba çoxlu fıstıq yığsanız, bir müddət sonra özü partlayacaq.
* Rusiyanın gəlirinin 10%-i "Vodka" satışlarının payına düşür.
* Çində uşaqlar anadan olduğu andan 1 yaşında sayılırlar.
* Arıların başlarında 3 kiçik, ön tərəfdə isə 2 böyük göz olmaqla, 5 gözləri var.
* Zürafə dili ilə qulağını təmizləyə bilir.
* Kenquru sürüsü ingiliscə "mob", yəni "şəbəkə" adlandırılır.
* Bir ilbiz 1 millik yolu 115 günə gedə bilər.
* Bir amerikan dolları bankotunun ortalama ömrü 18 aydır.
* Bir qurtum dəniz suyunda milyonlarla bakteriya, yüz minlərlə bitki mənşəli plankton və on minlərlə heyvan planktonları mövcuddur.
* Pişiklər şirin şeylərin dadını bilmirlər.

## 67 yaşlı qadının gözündən 27 linza çıxdı

Həkimlər britaniyalı təqaüdçünün gözündən 27 ədəd linza çıxarıblar. Məlum olub ki, o, bunları gözündə unudub. Bu barədə lenta.ru saytı Böyük Britaniyanın "Optometry Today" nəşrinə istinadən xəbər yayıb. Linzalar 67 yaşlı qadının gözü müayinə edilərkən üzə çıxıb. Onun gözündə katarakta əməliyyatı keçirmək istəyiblər. Həkimlərin diqqətini qadının göz qişasındakı göy rəngli nəsnə çəkib. Bu isə kontakt linza olub. Detalları iki seans ərzində çıxarıblar. 35 il müddətində linza taxan qadının fasiləsiz olaraq daim linzadan istifadə etdiyi üzə çıxıb. Onun bəzən linzaları gözündə unutması da bu nəticəyə gətirib çıxarıb.





## Qohumları ad günündə plastik əməliyyat hədiyyə etdi, qız öldü

İtaliya sakini plastik əməliyyat keçirəndən sonra dünyasını dəyişib. Bu əməliyyatı ona qohumları ad günü hədiyyəsi etmişdilər. Mariya Kyara gözəllik salonunda çalışır və institutda oxuyurdu. Dəfələrlə burnunun formasından şikayət edən 21 yaşlı qıza qohumları ad günündə burun əməliyyatı hədiyyə ediblər. Qız Formio şəhərindəki özəl klinikaya müraciət edib. Əməliyyatdan sonra onun halı pisləşib və onu digər xəstəxanaya çatdırıblar. Orada isə həkimlər ona beyninin öldüyünü bildiriblər.

İndiyə qədər də onun ölümünə nəyin səbəb olduğu bilinmir. Ailə ehtimal edir ki, əməliyyatda istifadə edilən tibbi elementlərə qarşı allergiyası olub. İşin materiallarına əsasən, italyan qızda ürək tutması yaşanıb və ondan sonra komaya düşüb. Situasiyanın tam aydınlaşdırılması üçün qıza autopsiya edəcəklər. "Biz başa düşmürük ki, 21 yaşında burun korreksiyası əməliyyatı nəticəsində insan necə ölə bilər" - bunu da jurnalistlərə qızın dayısı deyib. Ailə əlaqədar qurumlardan detallı araşdırma tələb edir.

Bu ilin iyulunda xəbər verilmişdi ki, Filippinin Neqros adasında bir qadın ailəsindən xəbərsiz liposaksiya əməliyyatı etdirib. Bu əməliyyat daha sonra onun ölümü ilə yekunlaşıb.

## Əlil arabasındakı qadın həmcinsinin üstünə düşüb onu öldürdü



Yaponiyanın Takamasu şəhərində 76 yaşlı qadın üzərinə əlil arabalı bir nəfərin düşməsi nəticəsində dünyasını dəyişib. Bu barədə Japan Today nəşri xəbər verib. İnsident mebel mağazasında baş verib. Əlil arabasında oturan 81 yaşlı qadın əri ilə birlikdə eskalatorla yuxarı qalxarkən üçüncü mərtəbədə müvazinətini itirib və pilləkənlə aşağıya doğru yıxılıb. Bu zaman o, özü ilə birlikdə əlil arabasındakı arvadını da dartaraq aparıb. Onların hər ikisi aşağıda dayanan yaşlı qadının üstünə yıxılıblar. Hadisədən 8 saat keçəndən sonra qadın aldığı zədələrə görə həyatını itirib. Yıxılmış kişi demək olar ki, heç bir zədə almayıb, həyat yoldaşında isə sınıqlar yaranıb. Halbuki mağazada xüsusi elanlar olub və orada yazılıb ki, eskalatorla uşaq və əlil arabası ilə qalxmaq doğru deyil. Kişi isə deyir ki, bu barədə dərin düşünmədən hərəkət edib. Onu ehtiyatsızlıqdan adam öldürmə maddəsinə görə cinayət məsuliyyətinə cəlb edə bilərlər.

İyun ayında isə xəbər verilmişdi ki, Moskvada eskalatordan metroya 7 nəfər çinli yıxılıb. Onlar şelfi çəkməyə çalışırmış.





## Hər gün 1.6 kilometr, həyatı boyu 270 min kilometr qaçıb

Keçmiş britaniyalı marafonçu Ron Hill son 50 ildə hər gün 1.6 kilometrlik məsafəni qaçıb. Bu barədə BBC News xəbər verir. Məlumata görə, kişi 1964-cü ilin 20 dekabr tarixindən etibarən qaçmağa başlayıb. 76 yaşlı idmançı Mançesterdəki 5 kilometrlik qaçışda iştirak edib. O, qaçışdan sonra jurnalistlərə açıqlamasında belə deyib: "Əgər siz qaçmağı özünüzə adət etsəniz, bu, çox asan olacaq. Hamıya, sadəcə, qaçmağı məsləhət görürəm. Və təkcə 5 dəqiqədən sonra siz ritmi hiss edəcəksiz və çox xoşunuza gələcək".

Son 50 ildə üst-üstə idmançı 270 min kilometr qaçıb. Ron Hill Boston marafonunda qalib gələn ilk britaniyalı qaçış ustası olub. Bundan başqa, o, üç dəfə olimpiya oyunlarında iştirak edib. 1970-ci ildə Yedinburqda qızıl medala layiq görülüb.

## Qadının çox gülməsi onun çəkisinə təsir edir?

Qadınlar gülərkən bundan sonra daha diqqətli olmalıdırlar. Amerikalı alimlər müəyyənləşdiriblər ki, ürəkdən gülmək iştahanı artırır. Komediyalara və yumor olan verilişlərə baxmaq qızlarda daimi aclıq hissi yaradır. Bu səbəbdən arıqlamaq və gözəl bədən fiqurası saxlamaq üçün pəhriz saxlayan qadınlara mütəxəssislər komediya seriallarına baxmamağı məsləhət görür. Həmçinin kimsə onların yanında lətifə danışanda dərhal həmin yeri tərk etməlidirlər. Trillerlər və qorxulu filmlərə baxmaq isə qadınların iştahasını tamamilə küsdürür. Kaliforniyadakı nevroloji mərkəzin ekspertləri tərəfindən aparılan araşdırmada 14 qadın iştirak edib. Onlar DVD-də müxtəlif emosiyalı kinolentlərə baxıblar. İlk olaraq xanımlara sevimli komediyalarını nümayiş ediblər. Daha sonra isə "Sıravi Rayanın xilas edilməsi" filmindən qanlı fraqmentlər göstərilib. Bu filmlərə baxmazdan əvvəl və sonra isə təcrübəyə qatılanların qan nümunələri götürülüb. Məlum olub ki, gülüş nəticəsində orqanizmdə leptinin səviyyəsi 15 faiz aşağı düşür. Bu maddə isə iştahanı öldürür. Bunun əksinə olaraq aclıq hormonu kimi bilinən qrelinin miqdarı isə 9 faiz artır. Qanlı və qorxulu filmlərin nümayişindən sonra isə xanımlardan heç biri yemək istəmir. Bu fakt bir daha sübut edir ki, kök insanlar yumşaqürəkli və şən olurlar. Arıq xanımlarda isə qəddarlıq hissləri güclüdür. O da məlumdur ki, xanımlar şən gecələr zamanı qidaları nəzarət edilməyəcəyi səviyyədə qəbul edirlər və qəbul olunmuş qidalanma formasından kənara çıxırlar. Bunun əsas səbəbi isə şənlikdir.



Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050